XƏZƏR XƏBƏR

KHAZAR VIEW

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 347 Yanvar 2016



khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218-2772






“XƏZƏR”DƏ İMTAHAN HƏYƏCANLARI






İÇİNDƏKİLƏR

Hamlet İsaxanlının Honq Konqa işgüzar səfəri 4
Universitet xəbərləri 6
"Xəzər"də bayram şənliyi 8
Xəzər Universiteti məzunları ilə görüş 12
"Dünya" məktəbində Cəfər Cabbarlının anım günü 14
University President Vizits Iran 20
Hamlet İsaxanlı: gələcəyə gedən yol düşüncədir, ağıldır... *(Gülnar Mayisqızı)* 22
Firəngiz Nəsirova. "Şekspir qədim və müasir dövrdə" 28
Pianoçu əməkdaşımızın Romada solo konserti 35
Bilik yarışı 38
NDU xəbərləri 40
Alik Əlioğlu: "deyərdi ki, hər şeirindən bir roman çıxar" *(Mirmehdi Ağaoğlu)* 42
South Korea and Japan Settle Deal on Wartime Korean Sex Slaves 50
Jeffrey Kluger. How four New Elements Got Seats at the Periodic Table 51
Musiqi və incəsənət departamentinin hesabat konserti 57
Stephanie Zacharek. Top 10 Best Movies 60
Xəzər Universitetində "Robotiks" yarışması keçirildi 64
Uğurunu şansına buraxmağı sevməyən adam. *(Aygün Əziz)* 70
Hüseyn Həşimli. Rübai müdrikliyi 73
"Xəzər"in komandası qalib oldu 77
Şəhərlərin simvolları 78

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi: Xəzər Universiteti

Baş redaktor: Hamlet İsaxanlı

Baş redaktor müavini: Əlirza Balayev

Redaksiya heyəti: Camal Mustafayev, Əjdər Ağayev, Alla Axundova, Şahin Fazil, Kıyaz Aslan

İngilis dilində mətnlərin redaktoru: Marta Lauri

Rəssam: Mir Rafiq Əbdürəhimov

Kompüter tərtibatçısı: Nigar Aydəmirova

Foto: Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1998

Founder: Khazar University

Editor-in-chief: Hamlet Isaxanli

Associate editors: Alirza Balayev

Editorial member: Jamal Mustafayev, Ajdar Aghayev, Alla Akhundova, Shahin Fazil, Kıyaz Aslan

Editor of English Texts: Martha Lawry

Design by: Mir Rafig Abdurahimov

Computer graphics: Nigar Aydemirova

Photo: Multimedia Centre



Hamlet İsaxanlının Honq Konqa işgüzar səfəri

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı dekabrın 16-dan 19-dək işgüzar səfər məqsədilə Çin Xalq Respublikasının xüsusi statusu olan Honq Konq bölgəsində oldu. H.İsaxanlı Çin Honq Konq Universitetinin Asiya-Sakit okean üzrə Regionşünaslıq İnstitutunun təşkil etdiyi İpək yolu və Çin ticarət əlaqələri barədə beynəlxalq konfransda panel iştirakçısı oldu, həmçinin "Azərbaycan və regionun Çinlə tarixi, bugünkü əlaqələri" və "İpək yolu ilə bağlı təkliflər" adlı mühazirələrlə iki dəfə çıxış etdi.

Konfrans ərəfəsində H.İsaxanlı qarşılıqlı əlaqələrin qurulması və inkişaf etdirilməsi ilə əlaqədər Çin Honq Konq Universitetinin prorektoru və Asiya-Sakit okean üzrə Regionşünaslıq İnstitutunun direktorlarından biri Fanni M. Çeunq, həmin institutun digər direktorlarından biri Stefen Çiu, Çin Honq Konq Universitetinin İncəsənət fakültəsinin dekanı Lünq Uen-Sanq və Sosial elmlər fakültəsinin dekanı Çi Ue Çiu, Çin-Pakistan İqtisadi Məsələlər üzrə Komitəsinin sədri Müşahid Hüseyn Səid, Macarıstanın Budapeşt Eotvos Lorand Universitetinin Tədris işləri üzrə prorektoru professor Peter Szalay, Belqrad Universitetinin rektoru professor Vladimir Bumbaşireviç, Albaniya Elmlər və İncəsənət Akademiyasının rektoru professor Fatos Tarifa, Sofiya Universtetinin əməkdaşı, Bolqarıstan Elmlər Akademiyasının üzvü professor İvan İlçev, Honq Konq Politexnik Universitetinin prorektoru professor Angelina Uen, Myanmanın Yanqon Universitetinin prorektoru professor Aunq Klau və Banqladeş Milli Universitetinin prorektoru professor Harun-ər-Rəşidlə görüşlər keçirdi.

Honq Konqdan Hamlet İsaxanlıya təşəkkür məktubu

Dekabrın 22-də Çinin Honq Konq Universitetinin prorektoru və Asiya-Sakit okean Araşdırmaları İnstitutunun direktorlarından biri olan professor Fanni M.Çeunq Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya elektron məktub yazaraq, Honq Konqda keçirilmiş Akademiya Beynəlxalq Konfransında və "Dünya Uzlaşma və Yol Təşəbbüsü" adlı tədbirdə iştirakına və verdiyi təklif və ideyalara görə təşəkkürünü bildirmişdir. Məktubda, həmçinin, H.İsaxanlının panelçilərdən biri olmasının tədbir üçün böyük şərəf olduğu, onun tədbirə öz töhfəsini verdiyi qeyd olunur.

Sonda Fanni M.Çeunq professor Hamlet İsaxanlıya öz təşəkkürünü bildirərək, gələcəkdə də əməkdaşlığın davam və inkişaf etdirilməsi arzusunda olduğunu bildirir.





HAMLET ISAXANLI IN HONG KONG

On December 16-19, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was on a business trip to Hong Kong. He participated as a panel participant in the International Conference on Hong Kong and the World under "The Belt and Road Initiative" organized by The Hong Kong Institute of Asia-Pacific Studies (HKIAPS) at The Chinese University of Hong Kong (CUHK). He also gave two lectures on "Historical and Current Relations between China and Azerbaijan/ the Region" and "Recommendations Regarding the Silk Road."

Aside from attending the conference, Prof. Isaxanli also met with the following participants to discuss opportunities for establishment and development of partnership: Prof. Fanny Cheung, Vice President of CUHK and Co-Director of HKIAPS; Dr. Stephen Chiu, Co-Director of HKIAPS; Dr. Leung Yuen-sang, Dean of the Faculty of Arts at CUHK; Dr. Chi Yue Chiu, Dean of the Faculty of Social Science at CUHK; Senator Mushahid Hussain Sayed, Chairman of the Parliamentary Committee on China-Pakistan Economic Corridor; Prof. Peter Szalay, Vice-Rector for Science of Eötvös Lorand University of Hungary; Prof. Vladimir Bumbasirevic, Rector of the University of Belgrade; Prof. Dr. Fatos Tarifa, Rector of Albanian Academy of Arts and Sciences; Prof. Ivan Ilchev of Sofia University St. Kliment Ohridski and Corr. Member of the Bulgaran Academy of Sciences; Prof. Angelina Yuen, Vice President of The Hong Kong Polytechnic University; Prof. Aung Kyaw, Pro-Rector of the University of Yangon (Myanmar), and Professor Harun-or-Rashid, Vice-Chancellor of National University of Bangladesh.

Thank You Letter to Hamlet Isaxanli from Hong Kong

On December 22, 2015, Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, received a letter from Dr. Fanny M. Cheung, Pro-Vice-Chancellor and Co-Director, Hong Kong Institute of Asia-Pacific Studies at The Chinese University of Hong Kong, to thank him for his participation in the Academia International Conference on Hong Kong and the World under the Belt and Road Initiative the previous week. Her letter is as follows.

Dear Prof. Isaxanli,

Season's Greetings to you!

Thank you very much for attending the Academia International Conference on Hong Kong and the World under the Belt and Road Initiative and giving your great insights on the Initiative.

It was an honour to have you as one of our panelists. I very much appreciate your valuable contribution and hope that you found the conference interesting and informative. I look forward to future exchanges and collaboration between our universities.

Wish you every success on future endeavours.

Yours sincerely,

Fanny M. Cheung, Ph.D.Pro-Vice-Chancellor and Co-Director, Hong Kong Institute of Asia-Pacific Studies,

The Chinese University of Hong Kong

XƏZƏR UNİVERSİTETİNİN İKİ MAGİSTR İXTİSASI DÜNYA ÜZRƏ İLK ONLUQDA YER ALMIŞDIR



eduniversal 2015 RANKING

Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin magistr dərəcəsi verən iki ixtisası Avrasiya və Orta Şərq reqionunda ümumi idarəetmə və iqtisadiyyat bölmələri üzrə "2016-cı ilin ən yaxşı magistr proqramları" arasında yer almışdır. Hər iki ixtisas ilk onluqdadır. Qeyd edək ki, beynəlxalq "Eduniversal Qiymətləndirmə Sistemi" hər il bütün dünya universitetlərinin ən yaxşı magistr proqramlarını dəyərləndirir.

Xəzər Universitetinin yer aldığı siyahıları bu linklərdən izləmək olar:

http://www.best-masters.com/ranking-master-economics-in-eurasia-and-middle-east.html;
http://www.best-masters.com/ranking-master-general-management-in-eurasia-and-middle-east.html.

TWO OF KHAZAR UNIVERSITY'S MASTER PROGRAMS AMONG BEST IN THE WORLD

eduniversal 2015 RANKING

Two master's degree programs offered by the School of Economics and Management at Khazar University were listed among the "Best Master's Programs in 2016" for Eurasia and the Middle East in the general management and economics categories. Both of the Khazar programs listed were within the top 10 programs in the ranking, which was carried out as part of the Eduniversal Ranking System to evaluate the top master's programs in the world each year.

Khazar University's results in the ranking may be viewed at the following links:

http://www.best-masters.com/ranking-master-economics-in-eurasia-and-middle-east.html;
http://www.best-masters.com/ranking-master-general-management-in-eurasia-and-middle-east.html.





XƏZƏR UNİVERSİTETİNDƏ ERASMUS + PROQRAMI İLƏ ƏLAQƏDAR GÖRÜŞ KEÇİRİLDİ

Dekabrın 17-də Xəzər Universitetində **Erasmus+** proqramı ilə əlaqədar görüş keçirildi. Görüşü açan Xəzər Universtetinin rektoru Dr. Hassan Niknafs iştirakçıları salamladı və Xəzər Universitetinin müxtəlif beynəlxalq layihələrdə iştirak etdiyini vurğuladı.

Sonra Azərbaycanda Milli **Erasmus+** Ofisinin rəhbəri Pərviz Bağırov və Avropa Komissiyasının Təhsil, Audiovizual və Mədəniyyət üzrə İcraçı Agentliyinin nümayəndəsi Karolina Garbaliauskaite çıxış etdilər. K. Garbaliauskaite **Erasmus+** proqramı haqqında geniş təqdimatla çıxış etdi və yerli partnyorların suallarına cavab verdi. Görüşün sonunda yerli universitetlər **Erasmus+** proqramı və proqram çərçivəsində qarşılaşdıqları çətinliklər haqqında da müzakirə apardılar.

Görüşdə Bakı Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Qafqaz Universiteti və digər Azərbaycan universitetlərinin nümayəndələri iştirak edirdilər.

ERASMUS + PROGRAM NETWORKING MEETING HELD AT KHAZAR

On December 17, a networking meeting for Azerbaijani partners of new ERASMUS + Projects was held at Khazar University. Dr. Hasan Niknafs, President of the University, opened the meeting and emphasized that Khazar participates in various international projects.

Then Parviz Baghirov, Director of the National Erasmus+ Office in Azerbaijan, and Karolina Garbaliauskaite, Project Officer for European Commission's Executive Agency for Education, Audiovisual and Culture (EACEA), made presentations. Mrs. Garbaliauskaite explained the management of ERASMUS+ projects in detail and answered partners' questions. At the end of the meeting, local partner universities held a discussion about challenges and difficulties they face related to the ERASMUS+ program.

Representatives from Baku State University, Sumgayit State University, Ganja State University, Nakhchivan University, Qafqaz University and other Azerbaijani universities participated in the event.

"XƏZƏR"DƏ BAYRAM ŞƏNLİYİ



Dekabrın 30-da Xəzər Universitetinin Mərmər salonunda 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni təqvim ilinə həsr olunmuş bayram şənliyi keçirildi. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor Dr. Hassan Niknafs əməkdaşları və işçi heyətini bayramlar münasibətilə təbrik etdilər, işlərində onlara uğurlar arzuladılar.





Universitetin Beynəlxalq əlaqələr ofisi tərəfindən hazırlanmış, universitet əməkdaşlarının və əcnəbi tələbələrin yeni il təbriklərindən ibarət videoçarxlar nümayiş etdirildi.

Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin hazırladığı konsert proqramı iştirakçılara təqdim olundu. Azərbaycan Dövlət Filarmoniyasının solisti, universitetin vokal müəllimi Məhsəti Cabbarovanın ifasında Azərbaycan mahnıları səsləndi, əməkdaşlar rəqs edib əyləndilər.

Fakültələr və digər qurumlar arasında viktorina və yarışmalar keçirildi, qaliblər hədiyyələrlə mükafatlandırıldılar.

Bayram şənliyi xoş əhval-ruhiyyə ilə başa çatdı.











LETTER TO FOUNDER FROM AMERICAN JAZZ VOCALIST

On December 29, 2015, well-known American jazz vocalist Gabrielle Stravelli and bassist Pat O'Leary sent a letter to Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, to thank him for hosting their concert at Khazar University this November with the support of the American Embassy to Azerbaijan. The letter is available below.

Hello Hamlet,

We hope this email finds you well- Pat O'Leary (bassist) and I met you when we performed last month at the National Art Museum as part of our US State Department-sponsored tour. It was great meeting you and speaking with you after the concert- we haven't forgotten that you encouraged us to get in touch about performing and teaching in Azerbaijan in the future. :)

We had a wonderful time leading workshops at various universities in the many countries that we visited. Our experience at Khazar University was particularly special, thanks to the wonderful chamber ensemble that we had a chance to perform with.

We only had a few hours to work with the students at the University and we would love to return to Azerbaijan to work with the students for a longer period of time- collaborating on both Azeri music and/or American Jazz. You may recall that Pat O'Leary, the bassist for the group, whom you spoke with after the concert, gave you a DVD of Serbian music he arranged for orchestra, choir and jazz ensemble. Perhaps this is something we could do in collaboration with Azeri musicians and choir- there are so many possibilities!

Below is a picture that someone took of our concert at the Art Museum. I've also included a youtube link to a video someone in the audience made that night- I think it really captures the beautiful feeling we experienced at the performance:

https://youtu.be/bb6h-mcjt48

Please let us know if you feel it would be possible for us to teach and perform in Azerbaijan in the future. We will be happy to provide materials that show our experience in both performance and teaching. Many thanks in advance for your consideration. We wish you a very happy New Year.

Sincerely,


Gabrielle Stravelli and Pat O'Leary

AMERİKALI MUSİQİÇİLƏRİN HAMLET İSAXANLIYA TƏŞƏKKÜR MƏKTUBU

Dekabrın 29-da məşhur amerikalı caz vokalisti Qabrielle Stravelli və bass ifaçısı Pat O'Leary Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya məktub göndərmişlər. Məktubda həmin ilin noyabrında ABŞ Dövlət Departamentinin Amerika Musiqisinin Xaricdə Təbliği Proqramı çərçivəsində ABŞ-ın Azərbaycandakı səfirliyinin dəstəyi ilə Xəzər Universitetində və Milli İncəsənət Muzeyində Xəzər Universitetinin Kamera orkestri ilə birlikdə keçirilən konsertlərin unudulmaz təəssürat yaratdığı, konsertdən sonra H. İsaxanlı ilə keçirilən görüşün onlar üçün çox qürurverici olduğu vurğulanır. Onlar bütün bunlara görə Hamlet İsaxanlıya öz təşəkkürlərini və təkrar Azərbaycana gəlmək istədiklərini bildirmişlər.

Məktubun sonunda Qabrielle Stravelli Milli İncəsənət Muzeyindəki konsertdən ***Youtube***-da yerləşdirilmiş videonun linkini göndərmişlər. Videonu bu linkdən izləmək olar: *https://youtu.be/bb6h-mcjt48*.

HAMLET İSAXANLININ
ELMİ REDAKTORU OLDUĞU KİTAB ÇAPDAN ÇIXMIŞDIR



2015-ci ilin dekabrında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının elmi redaktoru olduğu "Xacə Nəsirəddin Tusi. Təcrid əl-Etiqad, Kəlam hissəsi" (Tərcümə edən və şərhlərin müəllifi – Eminağa Məmmədov) kitabı "Araz" nəşriyyatında çapdan çıxmışdır.

Kitabda "Elmi redaktordan" başlığı altında Hamlet İsaxanlının "N.Tusi irsi, onun tədqiqi və tərcüməsi haqqında (E.Məmmədovun "Təcrid əl-Etiqad" əsərinin tərcüməsi və şərhini oxuyarkən)" adlı məqaləsi verilmişdir. Müəllif Nəsirəddin Tusinin elm tarixində tutduğu yeri göstərmiş, əsərlərini təhlil etmiş, tərcümə olunan əsərin məziyyətlərindən söhbət açmışdır.



XƏZƏR UNİVERSİTETİNİN "DÜNYA" KONSERT SALONUNDA "QIZIL PƏRİ" MÜKAFATLARININ TƏQDİMATI

Dekabrın 28-də Xəzər Universitetinin "Dünya" konsert salonunda Azərbaycan Professional Kinorejissorlar Gildiyası, Kinoaktyorlar Gildiyası və Prodüserlər Gildiyasının təsis etdikləri audiovizual sahə – kino və TV üzrə "Qızıl Pəri" mükafatları dünya kinosunun 120 illik yubileyi münasibətilə qaliblərə təqdim olunub. Tədbirdə çıxış edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qaliblərə mükafatların təqdim olunmasında da iştirak etmişdir. Qeyd edək ki, peşə mükafatının təsis edilməsində məqsəd audiovizual sahənin inkişafına kömək, milli-mənəvi dəyərlərin qorunub saxlanması və bu sahədə çalışan peşəkarları - müəllifləri, ifaçıları və prodüserləri həvəsləndirməkdir.

"Qızıl Pəri" mükafatının ilk müsabiqəsi 2010-2015-ci illərin istehsalı olan ekran əsərləri üzrə keçirilmişdir.

MÜƏLLİMİMİZİN MƏQALƏSİ TÜRKİYƏ JURNALINDA



Xəzər Universitetinin Dillər və mədəniyyətlər departamentinin fars dili müəllimi, fəlsəfə doktoru Zivər Hüseynlinin "Yeni Türkiye (Kafkaslar Özel Sayısı–II)" jurnalının 2015-ci ilin iyul-dekabr (№ 72) buraxılışında məqaləsi çap olunmuşdur. "Səfəvilər dövrünə aid farsca mətnlərdə türkcə hərbi terminlər" adlı məqalə XVI-XVII əsr tarixi qaynaqlar əsasında farsdilli türk dilindən fars dilinə keçmiş hərbi terminlər haqqında araşdırmadan ibarətdir.

Məqaləni bu linkdə oxumaq olar:
http://www.yeniturkiye.com/display.asp?c=0721

İMTAHAN QƏRARGAHININ ÜMUMİ YIĞINCAĞI

Dekabrın 30-da 2015-2016-cı tədris ilinin payız semestri dövründə şəffaflığı və obyektivliyi təmin etmək məqsədilə yaradılmış İmtahan Qərargahının ümumi yığıncağı keçirildi. İmtahan Qərargahının sədri Əlövsət Əmirbəyli qərargah üzvlərinə İmtahan Qərargahının işi haqqında məlumat verdi. İmtahanların müvafiq qayda və əsasnaməyə uyğun olaraq aparılmsının vacibliyi vurğulandı.



XƏZƏR UNİVERSİTETİ MƏZUNLARI İLƏ GÖRÜŞ



Dekabrın 26-da Xəzər Universitetinin Mərmər zalında universiteti müxtəlif illərdə bitirmiş məzunların bir qrupu ilə görüş keçirildi. Universitetin Kamera orkestrinin ifasında səslənən maraqlı musiqi proqramının ardınca görüşün rəsmi açılışı oldu.

Məzunlarla İş Mərkəzinin direktoru Baba Bayramlı görüş iştirakçılarını səmimi salamladı və onlara bugünkü görüşün məqsədi barədə məlumat verdi.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs çıxışında məzunları Xəzər Universitetində görməkdən məmnun olduğunu bildirdi və onların təhsil aldıqları universitetlə əlaqələrinin daha da möhkəmləndirilməsi ilə bağlı fikirlərini bölüşdü.

Xəzər Universitetinin keçdiyi inkişaf yolu haqqında B. Bayramlının qısa məlumatından sonra söz məzunlara verildi. "BP Azərbaycan" Şirkətinin Hüquq şöbəsinin müşaviri Pərviz Təhməzov, "Bank of Baku"nun sədr müavini Eldar Həmidov, "Nar Mobile" Şirkətinin Bazarın tədqiqi üzrə meneceri Selbin Ələkbərova, Təhsil Nazirliyi Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Muxtar Məmmədov,











ADA Universitetinin müəllimi Rəşad İbadov, "Yarat" İncəsənət Mərkəzinin Əlaqələr üzrə rəhbəri Höküməˇ Kərimova və "Dəmirbank"ın Korporativ müştərilər üzrə meneceri Ramal Əhmədov çıxış edərək, məzunlarla Xəzər Universiteti arasında sistemli əlaqələrin qurulması yolları və bu məqsədlə yaradılması nəzərdə tutulan Xəzər Universitetinin Məzunlar Assosiasiyasının vəzifələri və fəaliyyət istiqamətləri ilə bağlı konkret təkliflər irəli sürdülər.

Görüş çay süfrəsi ətrafında söhbətlə başa çatdı.














"DÜNYA" MƏKTƏBİNDƏ CƏFƏR CABBARLININ ANIM GÜNÜ

Dekabrın 26-da Xəzər Universiteti "Dünya" məktəbinin konsert salonunda görkəmli dramaturq Cəfər Cabbarlının anım günü keçirildi.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru Dr. Hassan Niknafs, AMEA-nın vitse - prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli, Əməkdar jurnalist Asif Rüstəmli, dramaturqun ailə üzvləri – qızı Gülarə xanım Cabbarlı, Cəfər Cabbarlının ev-muzeyinin direktoru, nəvəsi Qəmər Seyfəddinqızı, respublikanın ədəbi və elmi ictimaiyyətinin nümayəndələri, millət vəkilləri, media mənsubları iştirak edirdilər.

İlk olaraq tamaşaçılara dramaturq haqqında çəkilmiş film nümayiş etdirildi. ədibin həyatı və yaradıcılığı müəllim və şagird kollektivi tərəfindən səhnələşdirilmiş formada tamaşaçılara təqdim olundu.

H. İsaxanlı, İ. Həbibbəyli, A. Rüstəmli və Q. Seyfəddinqızı çıxış edərək, dramaturqun yaradıcılığından söhbət açdılar. Natiqlər məktəb kollektivi tərəfindən belə tədbirin keçirilməsini təqdir etdilər.

Tədbirin sonunda respublikanın tanınmış incəsənət ustaları tərəfindən Cəfər Cabbarlının şeirlərinə bəstələnmiş mahnılar ifa olundu.


TAMAŞA 1928








ULDUZ
ALMAS









"XƏZƏRİN HÜQUQİ STATUSU İLƏ BAĞLI İŞÇİ QRUPUNUN İCLASI"NIN SİMULYASİYASI





Dekabrın 22-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamenti tərəfindən tələbələr üçün "Xəzərin hüquqi statusu ilə bağlı işçi qrupunun iclası"nın simulyasiyası təşkil olundu. Tələbələri tədbirdə iştirak etmək üçün departamentin müəllimi Məhəmməd Muradov hazırlamışdı.

Tədbirə Bakı Dövlət Universitetinin Beynəlxalq Ümumi Hüquq kafedrasının müdiri, fəlsəfə doktoru Rüstəm Məmmədov, Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin aparıcı mütəxəssisi, fəlsəfə doktoru Kamal Makili-Əliyev və Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şabanın iştirak etdikləri dəyirmi masa müzakirəsi ilə start verildi.

İlk olaraq çıxış edən Xəzər Universitetinin rektoru Hassan Niknafs qonaqları salamladı və tələbələr üçün belə tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğuladı. R. Məmmədov tarix boyu Xəzərin statusu ilə bağlı davam edən mübarizələrdən danışdı, əlavə etdi ki, Xəzərin statusu ilə bağlı bütün problemlər sahilyanı ölkələrin öz maraqlarını düzgün müəyyən edə bilmədikləri üçün yaranır.





K. Makili-Əliyev çıxışında qeyd etdi ki, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi həmin su hövzəsinin sahilyanı ölkələr tərəfindən "dəniz", yoxsa "göl" kimi kateqoriyalaşdırılmasından asılıdır.

Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, Jean Monne kürsüsü mükafatı laureatı Muxtar Hacızadə Xəzərin beynəlxalq hüquqi statusunun Azərbaycanın xarici siyasəti üçün böyük əhəmiyyət kəsb etdiyini vurğuladı. Odur ki, Xəzər Universitetinin məqsədi tələbələrə yalnız beynəlxalq arenada baş verən hadisələrlə bağlı deyil, Azərbaycanın xarici siyasətinin formalaşmasını təmin edən strategiyalar haqqında da biliklər qazandırmaqdır.

Sual-cavab sessiyasından sonra tələbələrin tədbirə hazırlaşmasını əks etdirən qısa videoçarx nümayiş etdirildi və sonra simulyasiyaya start verildi. Dörd saat sürən danışıqlardan sonra tələbələr Xəzərin hüquqi statusuna dair konvensiyanın layihəsini qəbul etdilər.









2-ci "MİLLİ SPAGETTİ KÖRPÜ" MÜSABİQƏSİ

Dekabrın 24-də Xəzər Universitetində İnşaat mühəndisliyi departamenti tərəfindən 2-ci "Milli Spagetti körpü" müsabiqəsi keçirildi. Yarışmada Xəzər Universitetinin rektoru, Dr. Hassan Niknafs və Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev iştirak edirdilər.

Müsabiqədə bir gün əvvəl təşkilat komitəsi tərəfindən qəbul edilmiş Xəzər Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin ümumilikdə dörd qrupu yarışdı.

Körpünün götürdüyü maksimum yükün körpünün öz çəkisinə olan nisbəti əsasında qalib seçildi.

Qalib Xəzər Universitetinin "Ümid körpüsü" (Əzim Həşimov, Murad Tapdıqlı, Rövşən Allahverdiyev) oldu.









QALİBLƏR



دانشگاه شهید مدنی آذربایجان

Azarbaijan Shahid Madani University



UNIVERSITY PRESIDENT VISITS IRAN




On January 2nd, 2016, Dr. Hassan Niknafs, the President of Khazar University, made a visit to Shahid Madani University in Tabriz, Iran. During this visit he met with the Rector of the University, Dr. Vali Zadeh, and the heads of all the schools. Dr. Niknafs gave a short presentation about Khazar University as well as its achievements since 1991. He also visited many laboratories and learned about the ongoing research activities of this university. Many aspects of mutual collaboration such as joint scientific conferences, student and teacher exchanges, and joint publications in English in between the two universities were discussed. An MoU will be signed in the month of January 2016. Also, a delegation will be invited from Shahid Madani University to visit Khazar University in the near future.

HAMLET İSAXANLININ "NAŞİR"Ə MÜSAHİBƏSİ

Azərbaycan Naşirlər və Poliqrafçılar İctimai Birliyinin "Naşir" jurnalının noyabr-dekabr 2015-ci il buraxılışında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının **"Hamlet İsaxanlı: Gələcəyə gedən yol düşüncədir, ağıldır"** adlı müsahibəsi dərc olunmuşdur.

Müsahibəni jurnalın baş redaktoru Gülnar Mayisqızı aparmışdır.

(Müsahibə jurnalın 22-ci səhifəsində dərc olunur).



HAMLET ISAXANLI'S INTERVIEW FOR NASHIR

An interview with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, entitled **"Hamlet Isaxanli: The Road to the Future Is Thought and Intelligence"** was printed in the November-December 2015 issue of Nashir Journal, published by Azerbaijan Publishers and Poligraphists' Public Union.

The interview was conducted by Gulnar Mayisgizi, Editor-in-Chief of the journal.

"14-CÜ ƏSR AVROPA İNTELLEKTUALLARI" "ELM ÜÇBUCAĞI"NDA

Yanvarın 10-da İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu. Veriliş "14-cü əsr Avropa intellektualları" mövzusuna həsr olunmuşdu.

Verilişdə universitetin əməkdaşları da dinləyici qismində iştirak edirdilər.

"XƏBƏR - NEWS" QRUPUNUN UNİVERSİTETİN VEBSAYTINDA (*KHAZAR.ORG*) VERİLMİŞ XƏBƏRLƏRİN SAYI HAQQINDA MÜQAYİSƏLİ MƏLUMATI

Xəzər Universitetinin "Xəbər - News" Qrupu universitetin vebsaytında (*Khazar.org*) verilmiş xəbərlərin sayı haqqında müqayisəli məlumatı (*2008- 2015 - ci illər*) oxucularımıza təqdim edir.



Köhnədir başər qədər
Düşüncənin gərdişi,
Ömür getməsin hədər
Budur xilqətin işi.



HAMLET İSAXANLI:

"Gələcəyə gedən yol düşüncədir, ağıldır..."

...Təklik fikrimin süsləndiyi ən uca yüksəklik,
Təklik xəyalımın bəsləndiyi ən xoş gerçəklik...

Flora xanım oxuyur... (Sözləri Hamlet İsaxanlıya, musiqisi Nailə İsayevaya məxsusdur.)

Mən də mahnını dinləyə-dinləyə oxuyuram. Mahnı yox, əlbəttə, bu sətirləri yazan insan haqqında – onun gördüyü çoxşaxəli yaradıcı işlər, həyata keçirdiyi çoxsaylı böyük layihələr, yazdığı şeirlər, kitablar, ümumiyyətlə, onunla bağlı hər bir sətri oxumağa çalışıram. Oxuduqca da içimi hər zamankı kimi bir qürur hissi bürüyür. Bu hisslə hər yeni səhifəyə həvəslə bağlanıram... Bir ömrə sığdıra bildiyini bir neçə saatda və bir gündə oxuyub bitirə bilmədiyim üçün sevinirəm. Ziyalı, yaradıcı, eyni zamanda olduqca səmimi bir insanın həmvətəni olduğuma görə fəxr edirəm. Əslində, haqqında çox gözəl mətləblər demək olar, amma onu öz dilindən oxumağınızın daha anlamlı olacağını düşünürəm.

Bu səbəblə keçirəm söhbətimizə...

Beləliklə, alim və ictimai xadim, fizika-riyaziyyat elmləri doktoru, professor, şair, yazıçı, publisist, Xəzər Universitetinin və Avrasiya Akademiyasının təsisçisi Hamlet İsaxanlı ilə söhbəti sizə təqdim edirəm.

– Hələ məktəbli ikən ədəbiyyatla maraqlanan, hətta şeir və hekayə dəftəri olan Hamlet müəllimin ədəbiyyata gəlməyi gözlənilən idi... Amma Azərbaycan elmi mühiti hazırda sizi daha çox bir elm xadimi kimi tanıyır. Bu mühitə gəlişiniz barədə danışardınız.

– Dünyada elə insan yoxdur ki, onun marağı yalnız bir sahəyə yönəlmiş olsun. Dünya rəngbərəng olduğu üçün bu rənglərin bir çoxunu sevirsən. Təbiətə nəzər saldıqda, adətən, rəngarəngliyin vurğunu olur insan. Kiçik yaşlarımdan ədəbiyyatı sevirdim, məktəbdə tarix keçməyə başlayanda bu fənni də sevdim, sonra kimyanı sevdim, ali məktəbdə fizikaya vuruldum (ömürlük)... Riyaziyyata olan sevgim, ilk növbədə, atamdan, daha sonra oxuduğum məktəbdən qaynaqlandı. Məktəbimiz riyaziyyata üstünlük verən məktəb, atam isə riyaziyyat müəllimi idi. Atam mənim riyaziyyat sahəsi üzrə alim olmağımı arzulayırdı (bəlkə də, zamanın ona imkan vermədiyini mənim əldə etməyimi arzulayırdı). Ümumiyyətlə, riyaziyyatın dərin bir poeziyası var. Simfonik musiqini xatırladır mənə. Bu musiqini ilk dinlədikdə anlaşılmaz gələ bilər, amma dinlədikcə, incəliklərini anladıqca vurulursan. Yəni riyaziyyatın ahəngini, harmoniya-

sını anladıqda onu sevməmək imkansızdır. Riyaziyyatın dərin məntiqi bu harmoniya ilə qovuşduqda önündə böyük anlamda dünya açılır. Bu baxımdan riyaziyyat bir çox elmlərin açarı olan bir dildir. Bütün fənlərə qarşı marağım olsa da, məhz bu sahəni ixtisas seçdiyim üçün özümü xoşbəxt hesab edirəm. Riyaziyyat dünyanın qanunlarını anlamaqda mənə çox kömək edib.

Riyaziyyat çox qısqanc elmdir – qeyri-adi dərəcədə. Riyaziyyatla məşğul olacaqsansa, gərək özünü tamamilə bu sahəyə həsr edəsən. Mütəmadi məşğul olmasan, bu sahəni mənimsəyə bilməzsən.

– Uşaq vaxtı yazdıqlarınızı sonralar dərc etdirdinizmi?

– Xeyir, dərc etdirmədim. Hardasa 6-cı sinifdə oxuyanda "Əsərlər külliyyatı" yazmışdım (gülür). Şeirlər, hekayələr, hətta 2 dram əsəri də vardı. Təbii ki, o yaşda uşaq ancaq eşitdikləri və ya oxuduqları haqqında yaza bilər. Mən də oxuduğum bədii ədəbiyyatdan və eşitdiklərimdən təsirlənərək yazırdım. Ən çox sevdiyim yazıçı Cəfər Cabbarlıdır. Bütün əsərlərini dönə-dönə oxumuşdum və onun təsiri ilə də yazırdım. O, sözün sehrbazıdır. Sözdən sanki plastilin kimi hər şey yaradıb.

– Nəslinizdə ədəbiyyatçı, sizdə bu sahəyə maraq oyadan kimsə var idimi?

– Məndən böyük bibim oğlu vardı, Alı. Atası müharibədə həlak olduğundan bizdə yaşayırdı. O, oxuduğu kitabları mənimlə müzakirə edirdi. Demək olar ki, məndə ədəbiyyata marağı ilk o yaratmışdı. Bir də dayım Vəli müəllim. Kənd təsərrüfatı üzrə oxusa da, o da ədəbiyyatı çox sevirdi. Adımı da o qoymuşdu. Cəfər Cabbarlının tərcüməsində latın qrafikası ilə çap olunan "Hamlet"i oxumaq üçün mənə o vermişdi. Kitab oxuduqca ədəbiyyata daha çox bağlanırdım. Məktəbimizdə Mehman müəllim də riyaziyyat fənni tədris etsə də ədəbiyyat aşiqi idi. O, ədəbiyyat dərnəyi təşkil etmişdi. Mən də dərnəyin üzvü idim. Atama demişdi ki, Hamletin yazdıqlarını aparıb Bakıda çap etdirin. Bakı söhbəti çıxanda yazdıqlarımı topladığım dəftəri cırdım. Düzü, bərk qorxmuşdum. Uşaq ağlımla və ya fəhmimlə, yəqin ki, yazdıqlarımın o qədər də orijinal və dərin olmadığını duymuşdum (gülür).

– İlk kitabınız «Təzadlar» oldu...

– Gənclik illərində çox yazırdım. Yazdıqlarımı dostlara, tanışlara verirdim, çoxunu saxlamırdım. Özümdə yalnız bəziləri qalmışdı. Əslində, çap olunmağı düşünmürdüm. Sonralar əhatəmiz, ailəvi dostlarımız çoxaldıqca yazdıqlarımı çap etdirməyi məsləhət gördülər. Görkəmli filosof Camal Mustafayev Nailə xanımdan xahiş etdi ki, yazdıqlarımı toplasın. "Təzadlar" kitabım beləcə çap olundu. Kitab uğurlu oldu deyəsən, sonra digər kitablar yarandı. Bir hissəsi isə üzə çıxmaq üçün vaxt tələb edir...

– Deyilənə görə soyadınızı babanız Qaçaq İsaxandan götürmüsünüz. Yəqin ki, uşaq vaxtı babanız haqqında rəvayətlər də eşitmisiniz?

– Qaçaq İsaxan XX əsrin 20-ci illərinin sonu və 30-cu ildə Gürcüstan və Ermənistan ərazilərində sovet rejiminə qarşı silahlı üsyana başçılıq edib. 33 yaşında öldürülüb. Uşaq vaxtı babam haqqında çox rəvayətlər eşidirdim. Hamı onu mərd, igid insan kimi tanıyırdı. Sonralar babamla bağlı arxivləri araşdırdım. Onun törətdiyi üsyanları yatırmaq üçün Beriya çox çalışıb, Stalinə teleqramı olub. Babamın ölümündən sonra nənəmi uşaqları ilə birgə sürgün ediblər. Bir il Qazaxıstanda, bir il də Qırğızıstanda yaşayıblar. Böyük çətinliklərdən sonra vətənə dönüblər. Atama familyasını İsaxan yazdırmağa icazə verməbilər. Buna görə İsayev olduq. Sonralar mən İsaxan ədəbi təxəllüsünü götürdüm.

– Bakı Dövlət Universitetinin riyaziyyat fakültəsini bitirdikdən sonra Moskvaya elm ardınca getdiniz...

– Düşünürəm ki, dünyada xalqların yarışı gedir və bu yarış, ilk növbədə, elm yarışıdır. Bəşər yarışında elm və texnologiya hər zaman birinci yerdədir. Üstəlik uğurlu elmi yaradıcılıq böyük ehtirasdır, insanı təvazökar və xoşbəxt edir. Bu səbəblərdən də illər öncə elm adamı olmağa qərar verdim, Moskvada təhsilimi davam etdirdim.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetində, SSRİ Elmlər Akademiyasının V.İ.Steklov adına Riyaziyyat İnstitutunda oxudum, tədqiqat apardım, işlədim. Sonralar da dünyanı elm vasitəsilə, elm adamı kimi gəzdim. Bir çox xarici ölkələrin aparıcı universitetlərində muhazirələrim olub. Elm xadimləri ilə unudulmaz görüşlərin səbəbi də elmdə müəyyən uğurlar əldə etdiyimdir. Yəni elm həyatımı yönləndirib, qarşımda işıqlı yol açıb.

– Xarici səfərlər sizə nə verdi?

– İlk növbədə, müxtəlif elm xadimləri ilə canlı təmas, təbii ki, yaradıcılıq üfüqünü genişləndirir, birgə iş, əməkdaşlıq yaranır. Bu məsələnin bir tərəfi. İkincisi, əlbəttə, xarici səfər dünyagörüşü genişləndirir. Hələ sovet dövründə xarici səfərlərdə ölkəmizdə əldə

olunmayan elmi, tarixi, siyasi məlumatları oxumağı, sevdiyim sahələrin tarixi detallarına varmağı çox sevirdim. Xarici səfərlərdə ən qiymətli xəzinə olan kitabxanalar və kitab mağazalarında yaşamaq imkanı əldə edirəm, dərin və geniş bir dünya içinə qapılıram...

– Səhv etmirəmsə, sizə xaricdə iş təklifi də olub, amma imtina etmisiniz...

– Kanadada, Kalqari (Calgary) Universitetində o zaman bir rus professor işləyirdi. Orda səfərdə olanda mənə təklif etdi ki, qalıb universitetdə işləyim. Bildirdi ki, əgər qalıb burada işləmək istəsən, universitetin rəhbərliyi sənincün bir kafedra da açar. Mənsə bildirdim ki, burada qalıb işləyə bilmərəm. Çünki mənim böyüdüyüm yerin fərqli bir mədəniyyəti, musiqisi, dili və s. var. Dedim ki, musiqimizi, öz dilimi, öz ədəbiyyatımızı, poeziyamızı mütəmadi izləməsəm, öz əhatəmi görməsəm, rahat yaşaya bilmərəm. Təsəvvür edin, 1985-ci ildə Kalqaridə işlədiyim vaxt 7 min dollar maaş alırdım. O zaman üçün bu, çox böyük məbləğ idi. Amma düzünü deyim ki, bu, mənimçün sadaladığım mətləblərdən daha vacib deyildi. Azərbaycanda daha vacib işlər görə biləcəyimi düşünürdüm. Bu kimi təkliflər sonralar da oldu. Yalnız Xəzər Universitetini açmağı düşündüyüm il (1990-1991-ci illər) Türkiyədən bir iş təklifinə haradasa bir az isti baxdım. O zaman əmin deyildim ki, mənim bu universitet qurmaq arzum reallaşacaq. O zaman TUBİTAK –ın başqanı, həm də Orta Doğu Teknik Universitetinin riyaziyyat bölümünün başkanı Tosun Terzioğlu məni çox yüksək məvaciblə işə dəvət etdi. Ona bildirdim ki, yeni bir işə başlayıram, əgər alınmasa, bu təklif barədə düşünərəm.

– Yaxın günlərdə yubileyinə hazırlaşdığınız Xəzər Universitetinin necə yaranmasından danışmağınızı istərdim. 25 ildir ki, bu təhsil ocağı fəaliyyət göstərir. Universitetin açılması hansı zərurətdən yarandı?

– Xəzərin ideyası haqqında "Xəzərin sorağında" adlı bir kitab yazmışam. Kitabı xatirələr şəklində qələmə aldım. Bu ideyanın bir əsas mənbəyi bütün xarici səfərlərimin hazırladığı düşüncə olub. Xarici ölkələrdə – Amerika və Avropada gördüyüm, mühazirələr oxuduğum universitet modelləri məni çox maraqlandırmışdı, onlara bənzər ali təhsil ocağının öz ölkəmizdə də olmasını arzulayırdım. Amma quruculuq üçün tələb olunan maddi vəsait kifayət qədər çox olduğundan (üstəlik, bu cür şəxsi təşəbbüslərə ciddi baxılmadığından – Sovet dövrü idi) arzumu reallaşdırmaq çətin idi. Xaricə gedib-gələndə mətbuat və televiziya dəvət edir, bəzi fikirlərimi söyləyə bilirdim (məsələn, İlqar Əlfioğlu məni «Dalğa» verilişinə çağırmış və çox maraqlı söhbət olmuşdu). Bir dəfə Şotlandiyadan qayıdarkən yeni bir universitet modelinin yaranması arzusu məni qucağına aldı və ...buyur, qur dedi (bir şeirimdəki fikri azacıq dəyişib deyə bilərəm: "bir gün günaha batdım/içimdəki şeirə bənzər fikirləri/-silkələyib oyatdım/sətir-sətir, cümləcümlə/qələmimlə/bəzəyib çölə atdım/özümə iş yaratdım...).

Xəzər Universitetinin öz mədəniyyəti var (təşkilati mədəniyyət deyilən anlayış var). Burada təmiz və mədəni bir mühit yarada bilmişik. Nəyinsə mayası halal və yaxşı yoğrulursa, düşünülmüş plan varsa, əzmlə işə sarılırsansa, düzgün işləyirsənsə, ətraf səni qəbul etməyə başlayır. Yaxşı xatırlayıram, parlamentdə Təhsil Qanununun müzakirəsi gedirdi, deyirdilər "özəl" sözü olmaz, əvəzinə "qeyri-hökumət" yazılsın. Mən fikrimi bildirdim və dedim ki, qədimdə və orta əsrlərdə təhsil özəl olub, məktəbləri də, mədrəsələri də imkanı olan şəxslər açardılar. Yəni tarixən özəl tədris dövlət tədrisindən çox-çox öncə yaranmışdır (tam dövlət himayəsində olan təhsil XIX əsrdə Prussiyadan başlayıb). Bu baxımdan özəl təhsilə ögeylik qəribədir. Sonra zarafatla dedim ki, gəlin təhsil ocaqlarını qanuna özəl və qeyri-özəl kimi adlarla daxil edək. Gülüşmə və ad davası bitdi.

– Xəzər Universitetinin nəşriyyatı bir qədər sonra yaradıldı. Bu, hansı tələbatdan irəli gəldi?

– Nəşriyyat həddindən artıq mühüm işdir və ayrıca bir sahədir. Elmin və ədəbi düşüncənin məhsulunu insanlara çatdırmaq lazımdır. Bu istiqamətdə nəşriyyatların üzərinə böyük məsuliyyət düşür. Məsələn, Oxford Universiteti məşhur olduğu qədər onun nəşriyyatı – "Oxford University Press" də məşhurdur, dünyada ən böyük universitet nəşriyyatıdır. Bəzi universitet nəşriyyatları çox böyük olmasa da, amma çox ciddi, nəfis kitablar (məsələn, ildə 50-100 kitab) və jurnallar nəşr edirlər. Biz də bu məqsədlə universitetin nəşriyyatını yaratdıq. Nəşriyyatımızda elmi, bədii kitablar, konfrans materialları, elmi və populyar jurnallar nəşr edilir.

– Təsis etdiyiniz Avrasiya Akademiyası haqqında danışmağınızı istərdim. Akademiya ilə bağlı hansı planlarınız var?

– Mənim içimdə hər zaman elm yanğısı yatır (bunu qəti surətdə tərif kimi başa düşməyin, söhbət elm adlı füsunkar gözəlin vurğunu olmaqdan gedir – sevgi bizi dalısınca aparır və biz bunu məmnuniyyətlə edi-

rik...). Əvvəl də qeyd etdiyimiz kimi, elm dünya xalqlarının inkişaf səviyyəsini göstərən ilk göstəricidir. Elmin təşkilatı işləri çətindir. Biz düşündük ki, elə bir akademiya yaradaq ki, elm və sənət akademiyası olsun. Bu Akademiya riyaziyyat və təbiət elmləri, həyat haqqında elmlər, mühəndislik və texnologiya, sosial və humanitar elmlər, musiqi, ədəbiyyat və incəsənət sahələrini əhatə etsin. Avrasiya Akademiyası elm və sənətin inkişafına öz töhfələrini verməyə çalışacaq. Qarşısına görkəmli insanları obyektiv surətdə şərəfləndirmək məqsədi də qoyub. Beş nəfərdən ibarət təsisçi heyəti müəyyən edildi.

Azərbaycandan bəstəkar Arif Məlikov və mən təmsil olunmuşuq. Mən iki qolu təmsil edirəm – riyaziyyat və təbiət elmlərini, həmçinin sosial və humanitar elmləri. Amerikadan Lütfizadə (qeyri-səlis məntiq nəzəriyyəsinin atası) və mikroneyrocərrah Mahmud Gazi Yaşargil (hansı ki beynəlxalq miqyasda XX əsrin ikinci yarısının beyin cərrahı elan edilib, indi Türkiyəyə qayıdıb), bir də Türkiyədən məşhur tarixçi Halil İnalcık (20 ildən artıq Amerikanın aparıcı universitetlərində işləyib, Osmanlı tarixi üzrə dərslər deyib, indi Bilkent Universitetindədir) – bu beş elm və sənət adamı təsisçi heyət olaraq Avrasiya Akademiyasını yaratdıq. Qərara gəldik ki, bizim akademiyanın 30 üzvü olsun. Üzvlər daim bu sayda qalacaq, 30 tamamlandıqdan sonra yeni üzv ancaq 30-lardan biri dünyasını dəyişdikdən sonra seçilə biləcək. Yanvarda açılış törəni olacaq və rəsmi şəkildə fəaliyyətimizi elan edəcəyik. "Avrasiya əfsanəsi" adlı mükafat da təsis etmişik. Seçiləcək 30 üzvə bu mükafat veriləcək. Üzvlüyə yeni namizədlər həm artıq seçilmiş olan üzvlər, yəni Avrasiya akademikləri tərəfindən irəli sürüləcək, həm də fərdi olaraq hər kəs seçilmələri üçün öz namizədliklərini təklif edə bilərlər. Akademiyamızın məşhur elm və sənət adamının adını daşıyan beş medalı da təsis edilib. Avrasiya Akademiyası birinci növbədə bütün Türk dünyasını, qismən də digər bölgə və xalqları əhatə edəcək. Baş ofis Azərbaycanda – Bakıda olacaq.

– "Dünya məktəbi"nin maraqlı adı var...

– "Dünya məktəbi" bizim sevimli balamızdır. Təhsilin bünövrəsi kiçik yaşlardan və orta məktəbdən düzgün təşkil olunmalıdır ki, ali təhsilə və elmə maraq artsın, gələcəyin parlaq insanları yetişsin. Bu səbəbdən ilk dəfə Xəzər Universitetinin nəzdində eksperimental siniflər təşkil etdik və çox uğurlu nəticə alındığı üçün məktəb açmaq qərarına gəldik. Burada oxuyan uşaqlara öz övladlarımız kimi – tələbkar və qayğıkeşliklə yanaşırıq. Məktəb həm təhsil, həm də tərbiyə ocağı olmalıdır və belə də oldu. Məzunlarımız 100 faiz ali məktəblərə qəbul olurlar. Məktəbdə birinci sinifdən başlayaraq ayrıca üç dildə təhsil almaq mümkündür: Azərbaycan türkcəsində, ingiliscə və rusca. Eyni zamanda məktəbin tərkibində Beynəlxalq İB deyilən sistem var. Bu, dünyada yeganə geniş şəbəkə əmələ gətirən çox keyfiyyətli məktəb sistemidir. Bütün dünya universitetləri bu sistemin üzünə açıqdır, yəni bu məktəblərin məzunlarını məmnuniyyətlə öz tələbələri sırasına daxil etmək istəyirlər.

– Sizdən söhbət düşəndə dostlarınız xoş xasiyyətinizdən, səmimiliyiniz və sadəliyinizdən danışırlar. Deyirlər ki, Hamlet İsaxanlı insanlığı və alimliyi özündə birləşdirən mükəmməl elm adamıdır. Onunla bircə saat söhbət adama uzun müddət bəs edən bir enerji verir. Bu enerjini haradan alırsınız?

– Yamanca tərifladın məni, utandırdın... Gəlin öncə səmimilikdən başlayaq. Səmimilik insanın daxili musiqisidir. Allədən və kökdən də gələ bilir. Amma fərdiyyətdən də asılıdır. Nyutonun bir sözü var, deyirdi ki, uzağı görməyimin səbəbi nəhənglərin çiynində oturmağımdır. Dünyadakı nəhəngləri görüb dərk edəndə səmimi və sadə, təvazökar olmaya bilmirsən. İnsan dünyanın dərinliyini və nəhənglliyini görəndən sonra çox rahat olur, o ənginlikdən az da olsa öz payını alır, zövq alır və "məndən yoxdu" demir. Yaxşı elm adamı olmaq? Elmdə məktəb keçməyən adam böyük elm xadimi ola bilməz (istedad zəruridir, amma kafi olmaya bilər). Dünyanın elm mərkəzlərini görməsən, oranın havasını udmasan, orada yetişməsən, yaxşı alim ola bilməzsən. Digər tərəfdən adamın içində toplanan sevgi və arzular, eləcə də bilik və təcrübənin yaratdığı potensial enerji üzə çıxmaq istəyir, yaratmaq, qurmaq, özünü sərf etmək istəyir (bilik sərf olunduqca itmir, azalmır, əksinə, yeni keyfiyyət – axıcılıq qazanır, enerji isə, bilirsiniz ki, itmir, şəklini dəyişir, bir haldan başqa hala keçir).

– Dostunuz çoxdurmu?

Dost anlayışı mənimçün bir az qeyri-müəyyən anlayışdır. Dost olmaq – iki ruh halının bir-birinə uyğun gəlməsidir. Mənim ürəyimin bir tezliyi var (radio dalğaları kimi), o tezliyə sazlanmış, o tezliyə uyğun gələn adam mənim dostum ola bilər. Yəni dost olmaq üçün ruhən qohum olmaq lazımdır. İnsanlar bir-birini tapır, seçir, bir-biri ilə tam səmimi və xoş ünsiyyətdə olur, nəticədə dostluq yaranır, yəni dostluq bir seçimdir. Dostlarım var, amma çox azdır, daha çox sayda çox yaxşı tanışlarım var.

– Övladlarınızın tərbiyəsində önəm verdiyiniz prinsiplər olubmu?

– Bir neçə prinsip var ki, onlara əməl etməlisən – tərbiyə, adət-ənənəyə bağlılıq, təlim, təhsil və dünyagörü ilə bağlı. Dörd qızım var. Mən övladlarımla öncə dost olmuşam, onları bu prizmadan anlamağa və yardım etməyə çalışmışam. Təhsillərinə çox önəm vermişəm. Yaxşı xatırlayıram, «Koroğlu» dastanını danışanda özüm Koroğlunu ifa etmişəm – ortaya düşüb meydan sulayıb mahnı oxuya-oxuya. Onlarda belacə maraq yaradaraq oxumağa sövq edirdim. Həmişə öz təxəyyülləri və öz düşüncələri olması üçün onlara sərbəst düşüncə aşılamağa çalışmışam. Onları elə yetişdirməyə çalışmışam ki, düzgün qərarlar qəbul edə bilsinlər.

– Gənclərlə işləyən bir alim kimi onları daha yaxından müşahidə etmək imkanına maliksiniz. Bugünkü gənclərdə görmək istədiyiniz keyfiyyətlər nələrdi və görə bilmədiyiniz nələrsə varmı? Ümumiyyətlə, gənclərə hər zaman tövsiyə etdiyiniz nə olur?

– Gənclərdə əsas problem düşüncə tərzindədir. İnsanın düşüncəsi dar olanda dünyanı anlamaq və yol seçmək çətin olur. İnsanların bir-birini qınamasını, hay-küy salmasını anlaya bilmirəm. Adətən, dünyəvi və geniş düşüncəsi olmayanlar belə olur. Mütləqlikdən uzağa qaçmaq lazımdır. Bax, gənclərimizdə belə düşüncə tərzinin yaranmasını arzu edirəm. Digər tərəfdən düşünürəm ki, təhsil ocağının əsas məqsədi gənclərin düşüncə tərzini və zövqünü formalaşdırmaqdır. Gənclər özü də dünyanı dərindən anlamaq üçün çalışmalı, dünyanı anladıqca daha rahat olacaqlarını anlamalıdır, müəllimlərin səyi vacibdir, ancaq kifayət deyil, insan özü-özünü yetişdirməlidir...

– Sözlərinizə yazılan musiqilər içərisində daim zümzümə etdiyiniz biri varmı?

– Ruh varsa, onun qidası da olmalıdır. Musiqi də ruhun qidasıdır. Musiqi iç dünyasını tərənnüm edir, sərbəstdir. Sözün musiqiyə ehtiyacı var, amma musiqinin sözə ehtiyacı yoxdur. Yəni bu mənada musiqi səni istədiyin ənginsəmaya ucalda bilər (gülür). Mənim sözlərimə çox tanınmış bəstəkarlar musiqi yazıblar: Vasif Adıgözəlov, Ramiz Mustafayev, Vaqif Gərayzadə, Cavanşir Quliyev, Tahir Əkbər, Cahangir Zülfüqarov, xanımım Nailə İsayeva və başqaları (Lütfiyar İmanov kimi müğənnilər də sözlərimə musiqi yazıblar). Cavanşirin "Ziyarət" adlı poemam əsasında yazdığı musiqiləri, Tahir Əkbərin və Nailə xanımın, Vaqif Gərayzadənin "Həsrət" şeirimə yazdıqları mahnılar dilimdədir, onları evdə, dağda və ya yol gedərkən zümzümə edirəm.

– "Azərbaycan sevgi poeziyası" ensiklopedik toplusunun artıq ilk üç kitabı işıq üzü görüb. Ədəbiyyatın təməl mövzusu olan sevgiyə diqqət ayırmanız təsadüfi ola bilməz. "Sevəcəyik, sevgi ölməz" deyirsiniz. Sizin üçün, əslində, sevgi nədir, bir düstur varmı?

– Bəşəriyyətin ən universal dəyəri məhz sevgidir. Bəşəriyyət sevgi ilə yoğrulub, sevgi ilə inkişaf edib. Nifrət savaşlara gətirib çıxarsa da, sevgi qorumaq iqtidarında olub. Sevginin ünvanı da genişdir, böyükdür: valideynə, övlada, vətənə, qarşı cinsə və s. Sevgilərin bir ünvanı da yaradıcılıq sevgisidir. Hətta mən ona yaradıcılıq ehtirası deyərdim. Yaratdığını sevə-sevə yaradırsan və bununla yaşayırsan. Səmimiliyi də sevgi yaradır. Həyatın təməlində sevgi olduqda bu ətrafa və əmələ yansıyır. Sevən insan qarşısındakını yüksəldir, özünü yox. Yekəxana insanların içində dərin sevgi olduğuna şübhə edirəm. Onlar üçün hər şeyin mərkəzi özləridir, sevgininsə mərkəzi sevdiyin ünvandır. Bu antologiyani tərtib edəndə maraqlı məqamlarla qarşılaşdım. Bəzi şairlərimizdə sevgi hissi "məni sev"lə bağlıymış, "sənin sevgin mənəm" mesajı varmış. Amma əsl sevgi qarşındakını gözəl görmək, qeyri-adi etmək, özünü arxa planda saxlamaqdır. Sevgi şeirlərində şairin qüdrəti ona görə bəlli olur ki, sevgi şeirini yazarkən şair səmimidir, içindəki hisləri ifadə edir. Ümumiyyətlə, yaradıcılıqda haradakı səmimisən, orada gözəl alınmaq ehtimalı böyükdür. Poeziyanın yaranma səbəbi sevgidir. Sevgi mövzusunda poeziya öz qüdrətini tam göstərə bilir, yəni sevgi poeziyası həm də poetik heykəldir, antologiyanı hazırlamağımın bir səbəbi də budur. 3 cild nəşr olunub, 4-cü cild hazırdır. Antologiyanı hazırlayanda şairlərin bir çoxunu yenidən kəşf etdim. Bəzi çox tanınmışların sevgi mövzusunda az (və zəif) yazdıqlarının, bəzi nisbətən az tanınmışların isə bu mövzuda geniş və maraqlı yazdıqlarının şahidi oldum. Hələ davamı olacaq, 10 cildə kimi hazırlanacaq.

– Şeirdən söz düşmüşkən, Bəxtiyar Vahabzadə deyib ki, bir ondan razıyam ki, özümdən narazıyam. Hamlet İsaxanlının özündən narazı qaldığı vaxtlar olurmu?

– Əslində, özündənrazılıq bir aşağılıq kompleksindən irəli gəlir. Sən özünü kifayət qədər güclü və dolğun hiss eləmirsən, istəyirsən ki, ətrafındakılar səni olduğundan daha çox dəyərləndirsinlər, buna görə öz təbliğatınla məşğul olursan. Rahat və özünü bilən

insan zamanını özünütəbliğə və mənəm-mənəmliyə həsr etməz. Özündən narazı olmaq sözü də şablonlaşıb. Məncə, axtarmaq, yeni bilik və duyğular arxasınca düşmək, həyatın harmoniyasını anlamağa çalışmaq və bu yolda xoşbəxtlik əldə etməkdir həyatın mənası. (Yəni bu bilik, duyğu və harmoniyaya çatmamışam, tam çatmaq da olmur, o yolda olmaq – budur əsas məsələ!) Özündən razılığını ortaya qoyan adamın xoşbəxt olması müşkül məsələdir. İnsanlar bu xoşbəxtlik məfhumunu fərqli başa düşür. Məsələn, Aristotel deyirdi ki, "xoşbəxt olmaq üçün ətrafın fərqli olmalıdır", gərək cəmiyyət yaxşı olsun, mən ondan asılıyam kimi (onun məşhur "insan siyasi heyvandır" sözünün mənası budur). Epikür isə deyirdi ki, elə deyil, sən cəmiyyəti kökündən dəyişə bilməzsənsə (yaşadığın qısa zaman buna kifayət etməyə bilər), mövcud cəmiyyətdə, bu çərçivələr içində də xoşbəxt olmağa çalışmalısan. Deyirdi xoşbəxtlik odur ki, bir bağım var, orada müəyyən sayda dostlarımı yığa bilirəm, orada əncir qurusu, çörək-pendir və şərabım var və dostlarımla oturub hər şeydən danışa bilirik. Demək, bu zaman mən xoşbəxtəm. Yəni insanın içi bütövdürsə, həyatda öz yerini tutubsa, onun özünü təbliğ etməsinə, ətrafın alqışına ehtiyacı yoxdur. İnsan daima özünü inkişaf etdirməyə və oxuyub öyrənməyə, yəni dünyanı dərk etməyə, gözəllik və harmoniyanı görməyə, duymağa can atmalıdır.

– Mütaliə etməyə zamanınız olurmu? Sizcə, mütaliənin insana nə kimi xeyri var?

– Bu gün şagird və tələbə ikən oxuduğumdan daha çox oxuyuram. Hər gecə ən azı 50-60 səhifə elmi yazı oxuyuram, bədii ədəbiyyatı daha çox və sürətli oxumaq olur və mütləq nəsə yazıram. Tarix və fəlsəfə kimi sahələrə aid klassik və çağdaş ədəbiyyatı oxumağa çalışıram. Onlar mənə həm elmi, həm ruhi qida verirlər. Bədii ədəbiyyat oxumaq, eyni zamanda insana həmin dövr haqqında elmi-tarixi ədəbiyyatdan fərqli bilgi verir. Bədii şəkildə yazılan daha insani və yaddaqalan olur. Məsələn, XIX əsrdə Fransada həyat necə olub sualına Balzakı oxumaqla daha yaxşı cavab tapa bilərsən. İnsanların həyat tərzi, nə düşündüyü və güzəranı olduğu kimi göz önünə gəlir.

Elm tarixi, mədəniyyət tarixi, düşüncə tarixi, zəka tarixi ilə bağlı araşdırmalar apardığımdan tədqiqatıma kömək edən bu səpkili kitabları daha çox oxuyuram.


– "Naşir"in oxucularına ürək sözləriniz...

– "Naşir"in oxucularına bu jurnalı mütəmadi oxumağı, həmçinin maraq dairələrini genişləndirmələrini arzu edirəm. Jurnalınız zövqlüdür, yaxşı seçim edir, yəni zövqləri tərbiyə edə bilər. "Naşir"ə davamlı və uzunömürlü olmasını diləyirəm.

Gülnar Mayisqızı

"Naşir" jurnalı, noyabr-dekabr 2015-ci il





"ŞEKSPİR QƏDİM VƏ MÜASİR DÖVRDƏ"

Dünya bir teatr - elədir ki, var,
Qadınlar, kişilər - burda aktyorlar.
Gəlişi, gedişi vardır hər kəsin,
Ömrü başa vurmaq asan gəlməsin.



Avropada İntibah dövrünün ən böyük dühalarından biri olan ingilis dramaturqu Vilyam Şekspir öz dərin humanizmi, xəlqiliyi və həyatsevərliyi ilə 450 ildir ki, bütün dünyada məşhurdur. O, təqribən 37 səhnə əsəri və 154 sonetin müəllifidir. Onun hər bir əsəri oxucunu gah güldürür, gah sevgi aləminə aparır, gah da xeyli düşündürür. Şekspirin yaradıcılığı bir əfsanə olub, hər bir oxucunu ovsunlayır.

Xəzər Universitetində tədris olunan "Şekspir qədim və müasir dövrdə" fənni tələbələrin böyük rəğbətini qazanmışdır.



Dekabrın 23-də 2-ci və 4-cü kurs tələbələrinin təşkilatçılığı ilə universitetin akt zalında "Şekspir aləmi" adlı tədbir keçirildi.

Tədbir "Hamlet" faciəsindən Hamletin monoloqunun ekranda nümayişi ilə başladı və 2-ci kurs tələbəsi Şamil İsmayılov bu monoloqu söylədi. Sonra "Romeo və Cülyetta" əsərindən bir parça və bu əsərə yazılmış həzin bir musiqi parçası hər iki qrup və zalda oturan dinləyicilərlərin ifasında birlikdə səsləndi. Gülşən Rüstəmova "Romeo və Cülyetta" əsərindən gözəl bir mahnını çox məharətlə ifa etdi. Tələbələrdən Aygül Əliyeva, Nigar Fərmanova, Amil Babayev, Sabir Nəbiyev, Ənvər İsmayıllı, Nərgiz Şahmalıyeva, Nərgiz Qasımlı və Gülşən Rüstəmova Şekspirin sonetlərini oxudular. Pəri Hüseynova "Otello" faciəsindən bir parça oxudu. Fatimə Bayramova "Maqbet" faciəsini ekranda canlandıraraq, dinləyicilərə bu əsər haqqında maraqlı məlumat verdi. Tədbirdə Şekspirin 8 səhnə əsəri və 25 sonetindən fraqmentlər səsləndi.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru Dr. Hassan Niknafs, prorektor İsaxan İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov iştirak edirdilər.


Son sözlə çıxış edən H. İsaxanlı Şekspir sənəti haqqında çox maraqlı fikirlərini tələbələrə çatdırdı.

Şekspirin əsərləri həyat haqqında böyük bir cəsarət və fərəhlə söylənmiş bədii bir həqiqətdir. Şekspir təkraredilməz bir nümunə olaraq qalır və yaşayır.









Firəngiz Nəsirova,
İngilis dili və ədəbiyyatı kafedrasının baş müəllimi

MEETING WITH US EMBASSY REPRESENTATIVES



On January 8, Khazar University hosted a meeting with the staff members of the US embassy in Baku for the purpose of exploring cooperation opportunities. Cultural Affairs Officer Amy Petersen, Grants Manager Nigar Aliyeva, and Education Specialist Ramina Murshudova were met by President Hassan Niknafs, Vice President Mahammad Nuriyev and Mukhtar Hajizada, Head of the Department of Political Science and International Relations Department. During the meeting, the Embassy officers informed the members of Khazar University about the various programs currently available for Azerbaijani nationals. Presidet Niknafs informed the education specialists of the US embassy about Khazar University's facilities for hosting international scholars and students.



QAFAR SARIVƏLLİNİN RƏSM SƏRGİSİNDƏ

Yanvarın 12-də Vəcihə Səmədova adına sərgi salonunda tanınmış rəssam Qafar Sarıvəllinin müxtəlif janrlarda olan rəsm əsərlərindən ibarət sərgisinin açılış mərasimi keçirildi.

Tədbirdə çıxış edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı rəssamın yaradıcılığını xarakterizə etdi.

Qeyd edək ki, Hamlet İsaxanlının "Yadındamı" şeiri əsasında Q. Sarıvəllinin çəkdiyi qrafika əsəri də sərgiyə daxil edilmişdi.



TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNDƏ "DƏYİRMİ MASA"

Dekabrın 17-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentində Azərbaycan Milli Araşdırmaları Mərkəzinin əməkdaşı türkoloq Əkbər Nəcəfin iştirakı ilə "Monqol istilası və sonrasında Şərqi İslam coğrafiyasında insan resursları, onların yer dəyişdirməsi və potensiyalı: Şərqdən Qərbə doğru böyük insan, fikir, mədəniyyət köçü. İntellektual qaynaqlar, hərbi qaynaqlar" mövzusunda "dəyirmi masa" təşkil edildi. Tədbirdə Tarix və areologiya departamentinin müdiri, fəlsəfə doktoru Roza Arazova, departamnetin müəllimləri və universitetin əməkdaşları - fəlsəfə doktorları Ülviyyə İbrahimli, Təranə İsayeva, Günay Novruzova, Fərda Əsədov, Mail Yaqubov, Zivər Hüseynli, həmçinin Orxan Zamanov, Səidə İzmailova, AMEA-nın Tarix İnstitutunun əməkdaşı, fəlsəfə dktoru Dilavər Əzimli, Bakı Dövlət Universitetinin əməkdaşı, fəlsəfə doktoru Həsən Qəniyev, AMEA-nın Şərqşünaslıq İnstitunun əməkdaşı, fəlsəfə doktoru Zülfiyyə Vəliyeva iştirak edirdilər.

Tədbiri R. Arazova açdı və Əkbər Nəcəfi iştirakçılara təqdim etdi. Ə. Nəcəf çıxışında monqol istilaları, monqollar dövründə sosial və iqtisadi həyat, hüquq sistemi və digər məsələlər haqqında ətraflı məlumat verdi.

Sonra Ə. Nəcəf iştirakçıların suallarını cavablandırdı və bir çox maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.

Tədbirin sonunda R. Arazova iştirakçılara təşəkkürünü bildirdi və növbəti "dəyirmi masa"da müzakirə olunacaq mövzuları tədbir iştirakçılarına təqdim etdi.





MEETING WITH UNIVERSITY OF PENNSYLVANIA'S LARA FABIAN

On December 18, the Khazar University Department of History and Archeology held a seminar on "The Roman Empire and the South Caucasus" with Lara Fablan, faculty member of the Archeology Department of the University of Pennsylvania, with the participation of members of the Azerbaijan National Academy of Sciences. Associate Professor Roza Arazova, Head of the Department of History and Archeology; Orkhan Zamanov, instructor for the Department; Dr. Farda Asadov, Director of the Center for Eurasia and Middle East Studies at Khazar; Firangiz Nasirova, Senior Instructor of the Department of English Language and Literature; and Dr. Mubarlz Khalilov of the ANAS Archeology and Ethnography Institute participated in the event.

The seminar covered a new approach to the ancient period in the South Caucasus and Caucasian Albania based on archeology and numismatics as well as modern methods.





TƏSİSÇİ LEİDEN UNİVERSİTETİNƏ YOLLANAN TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

Yanvarın 13-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı mübadilə proqramı çərçivəsində Leiden Universitetinə (Hollandiya) yollanan tələbələrlə görüşdü. Tələbələrin mübadiləsi TEMPUS IV proqramı tərəfindən maliyyələşdirilən Avropa İttifaqı Araşdırmaları üzrə Tədris Planının və Kadr Potensialının Gücləndirilməsi layihəsi çərçivəsində həyata keçirilir.

Görüş zamanı H. İsaxanlı tələbələrə öz dəstəyini bildirdi və Xəzər Universitetinin tələbə və müəllim heyəti üçün mövcud olan mübadilə proqramlarının müsbət cəhətlərindən danışdı. Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, fəlsəfə doktoru Muxtar Hacızadə bu mübadilə proqramının məqsədlərini vurğuladı və təklif olunan imkanlardan tam olaraq faydalanmağı tələbələrə tövsiyə etdi. Xəzər Universitetinin doktorantları Anar Rəhimov, Azad Qəribov və magistr tələbəsi Ramal Quluzadə mübadilə proqramında iştirak etməklə hansı akademik və şəxsi məqsədlərə çatmaq istədikləri haqda danışdılar.

SEND-OFF MEETING FOR GRADUATE STUDENTS GOING TO LEIDEN UNIVERSITY

On 13 January, a send-off meeting with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was held for the graduate students of Khazar University going on an exchange program to Leiden University (Netherlands). The exchange will take place within the framework of the Curriculum Development and Capacity Building in EU Studies Project funded by the Tempus IV program. During the meeting, Prof. Isaxanli offered his words of encouragement and highlighted the benefits of student exchange programs available to the staff and students at Khazar University. Dr. Mukhtar Hajizada, Head of the Department of Political Science and International Relations, reiterated the goals of this particular exchange program for the participating students and advised the students to fully benefit from the opportunities of their stay at their host university. PhD students Anar Rahimov and Azad Garibov as well as master student Ramal Quluzade spoke about their academic and personal goals in taking part in the exchange.

"MƏDƏNİYYƏT" KANALININ BAŞ DİREKTORU "XƏZƏR"DƏ

Yanvarın 13-də "Mədəniyyət" kanalının baş direktoru, Azərbaycan Respublikasının əməkdar artisti Ramil Qasımov Xəzər Universitetində olub, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşmüşdür. Magistratura, doktorantura və elmi işlər üzrə bölmənin müdiri Eldar Şahgəldiyev görüşdə iştirak etmişdir. Görüşdə qarşılıqlı əməkdaşlıq haqqında məsələlər müzakirə olunmuşdur.





GƏNCLƏR ÜÇÜN SOSİOLOJİ ARAŞDIRMALAR ÜZRƏ MASTER-KLAS

Dekabrın 19-da "Xalq Bank"ı ASC-nin Marketinq şöbəsinin əməkdaşı Tamerlan Dəmirbəyli Gənclər Fondunun maliyyə yardımı və "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının təşkilatı dəstəyi ilə keçirilən "Gənclər üçün sosioloji araşdırmalar üzrə master-klas" mövzusunda təlim keçdi. Təlimdə *Google FORM*-lar vasitəsilə sorğu anketlərinin yaradılması, sorğu anketlərinin tərtib olunma qaydası, respondentlərin seçim texnologiyaları, sosioloji sorğuların keçirilmə texnologiyalarından danışıldı. Tədbirdə iştirak edən bütün tələbələr 2016-cı ilin yanvarında *28 Cinema*-da təşkil olunacaq yekun bağlanış mərasimində sertifikatla təltif olunacaqlar. İştirakçılar üçün mövzular seçiləcək və təlimdən sonra həmin mövzu üzrə onlayn sorğu keçirəcəklər. Maraqlı sorğular aparmış iştirakçılar bağlanış mərasimində mükafatlandırılacaqlar.

MASTERCLASS ON SOCIOLOGICAL INVESTIGATION FOR YOUTH

On December 19, Tamerlan Damirbayli, employee of ASC Khalq Bank's Marketing Division, led a training event on Sociological Investigation for Youth with the financial support of Youth Foundation and the organizational support of Simurq Azerbaijan Cultural Association. The training included how to create questionnaires with Google Forms, rules for writing questionnaires, voting technology for respondents and technology for performing sociological research. All the students participating in the masterclass will receive certificates in a final ceremony at 28 Cinema in January 2016. Participants will create online questionnaires based on topics assigned at the training, and the creators of the most interesting surveys will receive awards at the closing ceremony.

HAMLET İSAXANLI: "ZİYALI ŞƏXSLƏRƏ DÖVLƏTİN QAYĞI VƏ DİQQƏTİ MÜHÜMDÜR"

Yanvarın 15-də "Şərq" qəzetinin internet səhifəsində "Biz ziyalilar da müraciət edirik, hökumət ona kömək olsun" adlı məqalədə əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Camal Mustafayevin səhhəti ilə bağlı yazı dərc olunmuş, "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli tərəfindən hökumətin ona yardım göstərməsi məsələsi qaldırılmışdır.

Bir neçə tanınmış ziyalı, o cümlədən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı təklifə münasibət bildirmişlər. H. İsaxanlı demişdir: "Camal Mustafayev görkəmli filosofdur. Onunla çox yaxın münasibətim var. Atamla da yaxşı dost olublar. Bir kənddə həm qonşu, həm də qohum olmuşuq. O, uzun zamandır Xəzər Universitetində şöbə müdiri vəzifəsində çalışır. Yəni, dərindən tanıdığım və böyük qiymət verdiyim azsaylı insanlardan biridir. Amma düşünürəm ki, Camal müəllimin vəziyyətini ictimailəşdirməyə o qədər də ehtiyac yoxdur. Çünki onu hər yerdə kifayət qədər yaxşı tanıyırlar, nüfuzlu adam kimi qəbul edirlər. Hökumət dairələri də alimi yaxşı tanıyır. Əlbəttə, ziyalı şəxslərə dövlətin qayğı və diqqəti mühümdür. Xüsusən də onların yaşlı vaxtlarında. Amma nəzərə çatdırım ki, onsuz da Camal müəllimin ətrafında olan ziyalılar, dostlar onunla yaxından maraqlanır, kömək edirlər. Təbii ki, hökumət tərəfindən də başqa nələrsə ola bilər. Niyə də olmasın? Ancaq bunun ətrafında hay-küy yaratmaq lazım deyil".

Məqalə ilə tam şəkildə bu linkdə tanış olmaq olar: *http://www.sherg.az/site/id13707/"Biz_ziyalilar_da_müraci?t_edirik,_hökum?t_ona_köm?k_olsun"*



PİANOÇU ƏMƏKDAŞIMIZIN ROMADA SOLO KONSERTİ

İtaliyanın Roma şəhərində noyabrın 21-dən dekabrın 21-dək İtaliya Mədəniyyət Nazirliyi və Latviyanın İtaliyadakı səfirliyinin təşkilatçılığı ilə VII Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivala müxtəlif təşkilatlar, o cümlədən Azərbaycanın İtaliyadakı səfirliyi də dəstək göstərmişlər.

Festivala Azərbaycanın İtaliyadakı səfirliyi tərəfindən Xəzər Universitetinin Musiqi və incəsənət deprtamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqova da dəvət almış və o dekabrın 17-də özünün solo konsertində Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini ifa etmişdir. Konsertin tamaşaçıları arasında İtaliya Mədəniyyət Nazirliyinin rəhbər işçiləri, Azərbaycan səfirliyinin əməkdaşları və xarici ölkələrdən gəlmiş qonaqlar da olmuşlar. Pianoçumuzun ifası iştirakçılar tərəfindən böyük rəğbətlə qarşılanmış və o, festivalın diplomu ilə təltif edilmişdir.

Festivala Azərbaycandan skripkaçı Ümidə Abbasova da dəvət olunmuşdu.

NEFT MÜHƏNDİSLİYİ DEPARTAMENTİ ELMİ - TƏDQİQAT LAYİHƏSİNİN TƏKLİF PLANININ TƏQDİMATINI KEÇİRDİ

Dekabrın 17-də Xəzər Universitetinin Neft mühəndisliyi departamenti ilə Neft Mühəndisləri Cəmiyyətinin Azərbaycan bölməsinin əməkdaşlığı çərçivəsində Xəzər Universitetində yaradılmış "eiLink Neft və Qaz Tədqiqat və İnkişaf Mərkəzi" adlı elmi-tədqiqat mərkəzinin iştirakı ilə BP şirkətinin ofisində ilk elmi-tədqiqat layihəsinin təklif planının təqdimatı keçirildi. Bu elmi-tədqiqat mərkəzinin əsas vəzifəsi neft və qaz yataqlarının işlənməsi üzrə tətbiqi tədqiqat məsələlərini həll edə bilən tədqiqatçı qrupları və istehsalat mütəxəssislərinin birgə əməkdaşlığı sayəsində istehsalatda neft hasilatının artırılması, neft və qaz yataqlarının səmərəli işlənməsi ilə əlaqədar məsələlərin həllinə xidmət edən innovativ elmi-tədqiqat layihələrinin yerinə yetirilməsindən ibarətdir.

BP şirkətinin neft və qaz yataqlarının işlənməsi üzrə mütəxəssis qrupu qarşısında layihənin planı barədə məlumatı Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalovun rəhbərliyi ilə departamentin doktorantı Şəhriyar Alxaslı verdi. Layihə planı elmi rəhbər Q. Zeynalov ilə geniş müzakirə edilmiş və onun aktuallığı barədə müsbət fikirlər irəli sürülərək, yerinə yetirilməsinin vacib olduğu bildirilmiş və qəbul edilmişdir.


Tədbirdə Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs və Tədris İşləri üzrə prorektor professor Məhəmməd Nuriyev də iştirak edirdilər. Tədbirin sonunda. H. Niknafs universitet haqqında tədbir iştirakçılarına məlumat verdi.

DEPARTMENT OF PETROLEUM ENGINEERING HOLDS PRESENTATION OF PROJECT PROPOSAL

On December 17, a meeting was held at the BP office to present a scientific research project proposal with the participation of the "eiLink Oil and Gas Research and Development Center" created at Khazar University as a result of a partnership between the Khazar University Department of Petroleum Engineering and the Azerbaijan branch of the Society of Petroleum Engineers. The main objective of this research center is to implement innovative scientific research projects to aid in the development of solutions to problems related to increase of oil production and effective use of oilfields in cooperation with production specialists of research groups able to solve practical research issues in working with petroleum and gas deposits.

The work plan was presented to BP oilfield specialists by Shahriyar Alkhasli, PhD student, under the leadership of Associate Professor Gasham Zeynalov, Head of the Department of Petroleum Engineering at Khazar. The plan was discussed in detail with G.Zeynalov, and participants accepted the plan, noting its relevance.

Dr. Hasan Niknafs, President of the University, and Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs, also participated in the meeting. At the end of the meeting, Dr. Niknafs spoke to the participants about Khazar University.



"FOLKLOR VƏ ETNOQRAFİYA" JURNALINDA "DÜNYA" MƏKTƏBİ MÜƏLLİMİNİN MƏQALƏSİ

"Dünya" məktəbinin ingilis dili müəllimi Altuntac Məmmədovanın "Əhməd Cəfəroğlunun 75 Azərbaycan bayatısına sığınan vətən nisgili" adlı məqaləsi "Folklor və etnoqrafiya I" jurnalının (qurucusu AMEA Nizami adına Ədəbiyyat İnstitutunun direktor müavini, əməkdar elm xadimi, professor Məhərrəm Qasımlıdır) 2015-ci il 4-cü nömrəsində dərc olunmuşdur. Məqalədə aslən Gəncədən olan, Türkiyədə mühacirətdə yaşayıb yaratmış görkəmli türkoloq Əhməd Cəfəroğlunun "75 Azärbajğanische Lieder "Bayaty" in der Mundart von Gäŋğä nebst einer sprachlichen Einleitung" ("Gəncə şivəsində 75 azəri bayatısı və lisana aid bir müqəddimə") adlı əsərindən bəhs edilir. Əsər 1930-cu ildə Berlində alman dilində çap olunmuşdur.

A. Məmmədova məqaləsi ilə yanaşı həmin əsərin "Ön söz" və Giriş" hissələrini Azərbaycan dilində, həmçinin kitabda verilmiş 75 Azərbaycan bayatısını ilk dəfə elmi ictimaiyyətə təqdim etmişdir.

AVRASİYA VƏ ORTA ŞƏRQ ARAŞDIRMALARI MƏRKƏZİNDƏ

Dekabrın 8-də Avropa Birliyinin maliyyəşdirdiyi "Qafqazda sabitlik və qeyri-sabitlik amillərinin öyrənilməsi layihəsi"nin (ISSICEU) beynəlxalq əlaqələndiricisi, İsveçrənin Sent Gallen Universitetinin professoru Dirk Lemkuhl və onu müşayiət edən həmin universitetin dosenti Dr. Katarina Xofman Xəzər Universitetində ISSICEU tədqiqat qrupu ilə seminar keçirdilər.

Tədbirdə universitetin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin (AOŞAM) direktoru Fərda Əsədov və AOŞAM tədqiqatçıları Elvin Yusifli, Murad Nəsibov, Ariz Hüseynov və Bəxtiyar Aslanov iştirak etdilər. Tədbirdə məlumatların toplanması, mövzu ilə əlaqədar elmi nəzəriyyələr və tədqiqat nəticələrinin təqdim edilməsi məsələləri müzakirə edildi.

SEMİNAR: "AZƏRBAYCAN-ÇİN SİYASİ ƏMƏKDAŞLIĞININ YENİ MƏRHƏLƏSİ „

Dekabrın 22-də Azərbaycan Dillər Universitetinin (ADU) Çin dili və mədəniyyəti mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına səfərinin yekunlarına həsr olunmuş "Azərbaycan-Çin siyasi əməkdaşlığının yeni mərhələsi" adlı elmi seminar keçirildi.

Seminarda tarix elmləri doktoru Nurulla Əliyev "Uzaq Şərqin müasir geosiyasətinin xüsusiyyətləri" mövzusunda çıxış edərək, Asiyanın hərbi-siyasi, geostrateji və geoiqtisadi proseslərində Çinin rolu haqqında məlumat verdi.

Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin müdiri Fərda Əsədov orta əsrlərdə türk dövlətçiliyi əsaslarının formalaşmasında Çinin imperiya ənənələrinin rolu haqqında çıxış etdi.

Seminarda ÇXR-nin Azərbaycandakı səfirliyinin İqtisadiyyat və ticarət məsələləri üzrə müşaviri Yuy Xunçı sənaye, nəqliyyat və logistika sahəsində Azərbaycan-Çin əməkdaşlığının perspektivləri barədə danışdı.

Seminarda ÇXR-in Azərbaycandakı səfirliyinin attaşesi Sya Fan, ADU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova da iştirak edirdilər.

"XƏZƏR"İN ƏMƏKDAŞININ Lent.az SAYTINDA MÜSAHİBƏSİ DƏRC EDİLMİŞDİR

Dekabrın 25-də Xəzər Universitetinin Elektron Media Mərkəzinin koordinatoru, şair Alik Əlioğlunun ***lent.az*** saytında müsahibəsi dərc edilmişdir. ***Lent.az*** əməkdaşının suallarını cavablandıran A.Əlioğlu Gürcüstanda mükafatlandırma zamanı başına gələn maraqlı əhvalatlardan danışmışdır. Müsahibəni bütövlükdə

http://kulis.lent.az/news/14154 linkindən oxumaq olar.

(*Müsahibə jurnalın 42-ci səhifəsində dərc olunur*).

KHAZAR RESEARCHER AT "NEW LEVEL IN AZERBAIJAN-CHINA POLITICAL PARTNERSHIP" SEMINAR

On December 22, a seminar entitled "New Level in Azerbaijan-China Political Partnership" was held at the ADA University Chinese Language and Culture Center to discuss Azerbaijani President Ilham Aliyev's trip to the People's Republic of China. Among other scholars, Dr. Farda Asadov, Director of the Khazar University Center for Eurasian and Middle Eastern Studies, participated in the seminar and gave a presentation about the formation of the foundations of Turkish government in the Middle Ages as well as the role of traditions of the Chinese Empire in that formation.

Other participants in the seminar included representatives of the Chinese Embassy to Azerbaijan and faculty members of other universities.







Dekabrın 21-də Xəzər Universitetinin Mərmər salonunda Tələbə Məclisinin təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş 3-cü bilik yarışı keçirildi.





Yarışda 23 komanda iştirak edirdi (Xəzər Universitetinin Təhsil fakültəsindən 4 komanda, İqtisadiyyat və menecment fakültəsindən 3 komanda, Humanitar və sosial elmlər fakültəsindən 3 komanda, Mühəndislik və tətbiqi elmlər fakültəsindən 3 komanda, "Dünya" məktəbinin 2 şagird komandası, Azərbaycan Respublikası Prezidenti yanında İdarəetmə Akademiyasından 2 komanda, Baki Dövlət Universitetindən 1 komanda, Azərbaycan Dövlət İqtisad Universitetindən 1 komanda, Azərbaycan Dövlət Pedaqoji Universitetindən 1 komanda, Azərbaycan Milli Konservatoriyasından 1 komanda, Azərbaycan Kooperasiya Universitetindən 1 komanda və Azərbaycan Universitetindən 1 komanda).

Tədbrin aparıcısı Tələbə Məclisinin prezidenti Mirzaağa Səmədov idi. 3 tur davam edən yarışda (1 tur –16 sual, 2 tur –10 sual və 3 tur – 8 sual) ilk dəfə olaraq bütün komandalar sona kimi mübarizəni davam etdirdilər.

Yarışın sonunda xal fərqinə əsasən 1-ci yeri 46 xal ilə Humanitar və sosial elmlər fakültəsinin komandası (Nicat İsmail, Fuad İbrahimov və Ayxan Hüseynov), 2-ci yeri 44 xal ilə İqtisadiyyat və menecment fakültəsinin komandası (Etibar Saatov, Toğrul Əsgərov və Məhərrəm Zamanov) və 3-cü yeri 40 xal ilə Humanitar və sosial elmlər fakültəsinin komandası (Cəlal Hüseynbəyli, Cavid Babayev və Kamran Hüseynov) tutdular.

Yarışdan sonra mükafatlandırma mərasimi keçirildi. 1-ci yeri tutanlar diplom və universitet rəhbərliyi tərəfindən hədiyyələrlə, 2 və 3-cü yerləri tutanlar isə diplomlarla təltif olundular.









GƏNC AKTYORUN SƏNƏT UĞURLARI

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi müxtar respublikada milli mədəniyyətin, milli musiqi və teatr sənətinin inkişafında, ali təhsilli incəsənət xadimlərinin, sənətşünasların hazırlanmasında özünəməxsus rol oynayır. Yola saldığımız 2015-ci il də fakültənin tarixində əhəmiyyətli sənət uğurları ilə yadda qalacaq. Belə uğurlardan biri də fakültənin Teatrşünaslıq və mədəniyyət kafedrasının müəllimi, C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının gənc və istedadlı aktyoru Elnur Rzayevin adı ilə bağlıdır. Universitein məzunu, 2012-ci ildən isə burada pedaqoji fəaliyyətə başlayan E. Rzayev hələ tələbəlik illərində Tələbə Teatr Studiyasında özünü istedadlı aktyor kimi tanıdıb.

Elnur Rzayev 2011-ci ildən tetarda aktyor kimi fəaliyyət göstərir. O, teatrın məşhur, zəngin sənət təcrübəsinə malik peşəkar aktyorlarla eyni səhnəni paylaşaraq, M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah" əsərində Şahbaz bəy, İslam Səfərlinin "Göz həkimi" pyesində Rauf, akademik Şəfaət Mehdiyevin "Mirzə Fətəli Axundov" və Nəriman Nərimanovun "Nadanlıq" əsərlərində hər iki böyük mütəfəkkirin gəncllik obrazlarını, habelə Nazim Hikmətin "Kəllə", Henrix İbsenin "Kuklalar", A. P. Çexovun "Russayağı evlənmə" və Ç. Aytmatovun "Gün var əsrə bərabər" kimi dünya dramaturgiyasına aid əsərlərdə də baş rolların mahir ifaçısıdır.

E. Rzayev öz istedadını rejissor, yazıçı kimi də sınamaqdadır və ən mühüm uğurlarından biri "Anamın Kitabı" Ədəbi Mükafatının "Pyes Müsabiqəsi-2015"də müəllif kimi əhəmiyyətli qələbə qazanmasıdır. Xatırladaq ki, "Anamın Kitabı" Ədəbi Mükafatı milli ədəbiyyatın inkişafına dəstək məqsədi ilə filologiya üzrə fəlsəfə doktoru Şəmil Sadiqin ideya və təşəbbüsü ilə Hədəf Nəşrləri tərəfindən təsis edilib, "Kitabevim.Az" və Dövlət Gənc Tamaşıçılar Teatrının təşkilatçılığı ilə həyata keçirilir. Layihənin rəhbəri yazıçı Müşfiq Xandır.

Müsabiqəyə təqdim olunan əsərlər içərisindən Ekspertlər Şurasının seçdiyi əsərlər onlayn səsverməyə buraxılan zaman paralel olaraq Münsiflər heyəti tərəfindən də qiymətləndirilir.



Münsiflər heyətinin sədri AMEA-nın vitseprezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibəylidir.

Münsiflər heyətinin qərarı ilə müsabiqədə birinci yer verilməmiş, ikinci yerə isə E. Rzayevin pyesi layiq görülüb.

Dekabrın 24-də Gənc Tamaşaçılar Teatrında keçirilən qaliblərinin mükafatlandırma mərasimində çıxış edənlər – fəlsəfə doktoru Şəmil Sadiq, akademik İsa Həbibəyli çıxış edərək, teatrların repertuarlarının müasir və yeni dram əsərləri ilə zənginləşdirilməsi, gənc dramaturqların yetişməsi baxımından müsabiqənin mühüm əhəmiyyətini vurğulamaqla yanaşı, Elnur Rzayevin "Qar gözləyərkən" adlı bir pərdəli absurd pyesinin orijinallığı, mövzu və ideya əhəmiyyəti barədə də yüksək rəy bildiriblər.

Elnur Rzayevə yeni yaradıcılıq uğurları arzulayırıq.

Mehriban Sultan,
Naxçıvan Muxtar Respublikasının əməkdar jurnalisti

Akademik İsa Həbibbəylinin dediklərindən:

"Naxçıvan Dövlət Universitetinin müəllimi, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru Elnur Rzayev M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah" əsərində Şahbaz bəy obrazının öhdəsindən çox məharətlə gəlib. Elnur Naxçıvan Dövlət Universitetinin səhnəsində Esxilin "Zəncirlənmiş Prometey" əsərindəki Promotey rolunu bütün gərginliyi ilə əks etdirib. Və zamanla başqa obrazları da məharətlə yaradıb. O, əsl mənada teatr fədaisi, sənət fədaisidir. Onun müsabiqəyə təqdim etdiyi əsər tamamilə yeni dramaturji metodla yazılmış qeyri-adi bir əsərdir... Elnur dramaturgiyamız üçün, səhnəmiz üçün əhəmiyyətli addır, yeni addır. Yeni baxışların, yeni düşüncənin, yeni imkanların, yeni fədailiyin adıdır. Ərəblinski ənənəsini yaşadan, bəzi məqamlarda meydana çıxaraq bu məşəli çiyninda aparmağa həvəsli olan, güclü adamlardan biridir".

lent.az



ALİK ƏLİOĞLU:

“DEYƏRDİ Kİ, HƏR ŞEİRİNDƏN BİR ROMAN ÇIXAR”

Kulis Alik Əlioğlu ilə müsahibəni təqdim edir

- Alik, nə ədəbi mühitdə, nə də mətbuatda görünürsən. Haralardasan, nə işlə məşğulsan?

- Görünmürsən deyəndə, əvvəllər yazıçı-şair dostlarla çox münasibətdə olurdum. Biz bir komanda kimi gəldik. Gənc Ədiblər Məktəbinin birinci buraxılışı biz idik. Qismət, mən, Nahid, Cavid, Rəbiqə... Onlarla ara-sıra görüşürdük, söhbət edirdik. Vaxt keçəndən sonra münasibətlər dəyişir. Mən əvvəlcədən bir şeyi deyim, başqa cür çıxmasın, özümü ciddi ədəbiyyatçı hesab etmirəm.

- Ədəbiyyata hobbi kimi baxırsan?

- Bəli. Hesab edirəm ki, həvəskar ədəbiyyatçıyam. Yəni həyatımı ədəbiyyata həsr etməmişəm. Mənim başqa işim-gücüm var. Sayt işi ilə məşğulam. O ki qaldı ədəbiyyata, onu da deyim, ədəbiyyatsız çox darıxaram. Müəyyən vaxt yazmayanda hiss edirəm ki, artıq darıxmağa başlayıram. Çox maraqlıdır, sırf ədəbiyyat üçün darıxdığımı hiss etmirəm, sadəcə nə üçünsə darıxıram. Görürəm ki, içimdə gərginlik var. Özü də əvvəldən bunun ədəbiyyat darıxmağı olduğunu hiss eləmirəm, sadəcə yazandan sonra rahatlaşdığımı görürəm. Onda başa düşürəm ki, bu, ədəbiyyatın darıxmağıdır.

- Belə “darıxmaq”lar tez-tez olur?

- Darıxmağı başqa cür də çıxartmaq olur. Sadəcə yazıçı-şairlər yazmağı bacardıqları üçün bununla təsəlli tapırlar. Tutalım, rəssamlar da rəsm çəkməklə təsəlli tapırlar. Elə adamlar da var ki, həm yazmaqla, həm də çəkməklə təsəlli tapırlar.

- Rəhmətlik Adil Mirseyid kimi...

- Bəli, bəli. Rəsm çəkəndə də yaradıcı adam rahatlaşır. Yəni, deməyim odur ki, sırf yazmaqla yox, o yaradıcı prosesin özündə bu rahatlığı tapıram.

- Deməli, gələcəyini ədəbiyyatla bağlı hesab etmirsən.

- Yox. Qətiyyən elə hesab eləmirəm. Ədəbiyyatla ciddi məşğul olmuram. Bu işin dalınca düşmədim. Mənə Qismətgil, dostlarım həmişə deyirdilər ki, yavaş-yavaş uzaqlaşırsan. Hətta təklif edirdilər ki, gəl jurnalistika ilə məşğul ol. Açığı, jurnalistika məni çox çəkmədi, baxmayaraq ki, özüm jurnalistikanı bitirmişəm.

- Alik, dəfələrlə çox ciddi qələm adamlarından sənin haqqında müsbət fikirlər eşitmişəm. Şərif Ağayar, Səlim Babullaoğlu həmişə səni tərifləyib, istedadlı olduğunu vurğulayıblar. Sənə elə gəlmir ki, bu dəyəri itirirsən, qiymətləndirmirsən?

- İtirmək deməzdim. Fikirləşmirəm ki, ədəbiyyatla ciddi şəkildə məşğul olmasam, onu itirəcəyəm. Ara-sıra yazıram və görürəm ki, heç də zəif yazmıram. O vaxtlar Mövlud Süleymanlı ilə tez-tez söhbətlərimiz olurdu. Mövlud müəllim deyirdi ki, yaşlaşdıqca görürəm artıq o çərçivədən çıxa bilmirəm. "Köç"ü, "Dəyirman"ı yazmışam. Otururam yazmağa, beynimdə tuturam ki, indi daha güclü bir şey yazacam. Amma yazıb görürəm gəlib yenə "Dəyirman"da dayandım. Onu keçə bilmirəm. Bir şeyi nəzərə alaq ki, Mövlud müəllim bunu yaşlı vaxtında deyir. Mövlud Süleymanlı kifayət qədər ciddi əsərlərin müəllifidir və öz sözünü demiş adamdır.

- Yeri gəldi, bir şey soruşum. Tez-tez bu mövzuda polemikalar yaranır, yəqin izləyirsən; kitabdangəlmə, yoxsa həyatdangəlmə ədəbiyyat, Yusif Səmədoğlu, yoxsa Mövlud Süleymanlı. Bu yaxında Kulisdə Aydın Məmmədovun 30 il əvvəl Əkrəm Əylisli ilə olan söhbətini verdik. Orda da bu polemika aparılırdı. Deməyim odur ki, təzə söhbət deyil. Bəs sənin münasibətin nədir? Bildiyim qədər Mövlud Süleymanlı ilə bir yerdə də işləmisən, yəni insan kimi də yaxşı tanıyırsan.

As of Tuesday, The Force Awakens has made an estimated $325.4 million domestically in five days, making it the fastest movie in history to hit $300 million. That's another record that The Force Awakens has stolen from Jurassic World, which previously reached $300 million in eight days.

An estimated $37.3 million of The Force Awakens' total came in on Tuesday alone, shattering another record for the biggest Tuesday gross of all time. The previous record holder, The Amazing Spider-Man, made $35 million.

The Force Awakens' $325 million domestic total means that in five days, it has already made more money than most of the other Star Wars movies made during their entire theatrical run. The Force Awakens had already passed up The Empire Strikes Back and Return of the Jedi, but now, unadjusted for inflation, it's pulled ahead of both the original Star Wars ($307.3 million) and Attack of the Clones ($302.2 million).

Internationally, The Force Awakens has raked in an estimated $364 million, which brings its global total to $689.4 million.

This article originally appeared on EW.com.

http://www.ew.com/article/2015/12/23/star-wars-force-awakens-hits-300-million-record-time/12070812/Star-Wars-The-Force-Awakens-becomes-fastest-film-to-make-1-billion-at-box-office.html





Schneider Electric

SIGMA

XƏZƏR UNİVERSİTETİNDƏ "ROBOTİKS" YARIŞMASI KEÇİRİLDİ





Dekabrın 18-də Xəzər Universitetinin Mərmər zalında Mühəndislik və tətbiqi elmlər fakültəsinin 4-cü kurs tələbələrinin "Robotiks" yarışması keçirildi.

Yarışmada hərəsinin tərkibində iki iştirakçı olan 6 komanda mübarizə aparırdı. Yarış çərçivəsində komandalar 5 mərhələdə çıxış etdilər. Turnirin ən maraqlı məqamı isə robotların yarışması oldu. Hazırlanan robotlar isə münsiflər heyəti tərəfindən qiymətləndirilirdi.





Dünyanın məşhur mühəndislik şirkətləri – ABB, SCHNEIDER Elektrik, Emerson və Sigma qalıb gələn komandalara bir-birindən qiymətli hədiyyələr təqdim etdi. Tələbələr tərəfindən maraqla qarşılanan həddiyələrdən birisi də ABB şirkəti tərəfindən təqdim edilən ABB şirkətinin 1 həftəlik texniki seminarı oldu. Belə ki, tələbələr beynəlxalq şirkətdə bir həftə texniki seminar keçmək imkanı əldə etdilər.



Yarış nəticəsində **"İddiaçılar" (I yer), "Gələcəyin texnoloq gəncləri" (II yer), "Bilinməyənlər" (III yer)** komandaları qalib hesab edildilər.

Yarış haqqında "Azərbaycan müəllimi" qəzetində xəbər dərc olunmuşdur. Xəbəri bu linkdən oxumaq olar:
http://muallim.edu.az/content/?category=arxiv&issue=02&content_id=29

EMERSON

ABB



FIRST ROBOTICS COMPETITION AT KHAZAR UNIVERSITY







On December 18, a Robotics Competition took place at Khazar University among School of Engineering students. There was a total of six teams, with two members in each team. Teams competed in five different categories. The Robot Battle category was the most captivating for the audience. All categories were evaluated by a panel of judges. Referees were invited from engineering industry leaders and universities, including BP, SOCAR, Azerbaijan Technical University and Qafqaz University. The winning teams were awarded trophies, certificates and gifts from engineering companies including Emerson, Sigma, and Schneider Electric as well as from Khazar University. Students were most motivated by the special grants from ABB Company, which awarded them a week of free participation in the Technical Seminar of Automation in ABB Learning Centre.
The winning teams were as follows:



Overall 1st Place – Challengers;
Overall 2nd Place -- Future Tech Guys (FTG);
Overall 3rd Place -- Team "Unknown".



MƏZUNUMUZ FƏLSƏFƏ DOKTORLUĞU DİSSERTASİYASI MÜDAFİƏ ETMİŞDİR`



2015-ci il dekabrın 25-də Azərbaycan Dövlət Tibb İnstitutunun Dissertasiya Şurasında Xəzər Universitetinin Tibb fakültəsini tibbi biologiya ixtisası üzrə bitirmiş Samirə Kələntərli "Süd vəzisi xərçəngində immunohistokimyəvi markerlərin Ki-67 və PHHZ morfometrik xüsusiyyəti" mövzusunda fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir.

Dissertasiya Şurası S. Kələntərliyə tibb elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırmaq haqqında yekdil qərar qəbul etmişdir.

Məzunumuzu təbrik edir, ona yeni uğurlar arzulayırıq.

MƏZUNUMUZLA "KASPİ"DƏ MÜSAHİBƏ

üç əsrin qəzeti

Yanvarın 11-də "Kaspi" qəzetinin İnternet saytında Xəzər Universitetinin məzunu Hökümə Kərimova ilə müsahibə çap olunmuşdur.

H. Kərimova Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin Beynəlxalq münasibətlər ixtisasını ən yüksək fəxri diplomla bitirdikdən sonra ABŞ-ın Ayova ştatının Vartburq Universitetində Beynəlxalq münasibətlər ixtisası üzrə təhsil almışdır. O, hazırda YARAT Müasir İncəsənət Məkanının əlaqələr üzrə meneceri vəzifəsində çalışır.

Müsahibəni bu link vasitəsilə oxumaq olar:http://kaspi.az/news.php?id=26359

(Müsahibə jurnalın 70-ci səhifəsində dərc olunur).

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET - ONLINE

ELAN

Xəzər Universiteti Dillər və mədəniyyətlər kafedrası fars dili müəllimi ixtisası üzrə dosent vəzifəsini (1 yer) tutmaq üçün (daxili namizədlər üçün nəzərdə tutulmuşdur) müsabiqə elan edir.

Müsabiqədə iştirak etmək üçün aşağıdakı şərtlər tələb olunur:

İxtisas üzrə fəlsəfə doktoru elmi adı;

İxtisas üzrə 5 il pedaqoji staj;

Elmi tədqiqat bacarığı.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" əsasnaməyə uyğun olaraq elan olunduğu gündən başlayaraq 30 gün müddətində qəbul edilir.

Tələb olunan sənədlər:

Şəxsiyyət vəsiqəsinin və diplomların surəti;

Elmi əsərlərin siyahısı.

Sənədlər universitetin Neftçilər kampusunda 506-cı otaqda qəbul edilir.

Sənədlərin qəbul komissiyası

Tel: +994 12 421 7916 (215)

Fax: +994 12 498 93 79

BİZİM MƏZUN



Höküмə Kərimova:

"Özünü tanıdınsa, sənə zaval yoxdur"

Özünə dəyər verir. Düşünür ki, səsini eşitdirmək üçün iki əlinin olması labüd deyil, tək əldən də səs çıxır. Ona görə də, insan çalışsa və öz üzərində işləsə, uğurlu karyera başına gələ biləcək ən gözəl hadisədir. Müsahibimiz YARAT Müasir İncəsənət Məkanının əlaqələr üzrə meneceri Höküмə Kərimovadır.

UĞURUNU ŞANSINA BURAXMAĞI SEVMƏYƏN ADAM

Əvvəlcə müsahibimizi tanıyaq:

Orta təhsilini Bakıdakı 220 saylı məktəbdə alıb. Məktəbdə oxuduğu müddətdən həyatını təkcə dərslərlə çərçivələməyib. Aktiv şagird həyatı keçirib və məktəbin bütün layihələrində iştirak edib. Bu layihələrdən biri ABŞ-da Şagird mübadiləsi proqramı olub. "Project Harmony"nin həyata keçirdiyi layihənin finalçısı olaraq ABŞ-ın Florida ştatında St Cloud High Schoolda bir müddət şagird olmaq şansını qazanıb. Daha sonra təhsilini davam etdirərək Azərbaycanda Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin Beynəlxalq münasibətlər ixtisasını ən yüksək fəxri diplomla bitirib. Universitetdə təhsil aldığı müddətdə ABŞ dövlətinin UGRAD proqramının seçimlərində özünü sınayıb və yüzlərlə insan arasında finalçı olaraq təhsilini ABŞ-ın Ayova ştatının Vartburq Universitetində Beynəlxalq münasibətlər ixtisası üzrə alıb. Amerikada həm universitetin tələbə qəbulu şöbəsində, həm də tələbələrlə iş üzrə beynəlxalq münasibətlər və mədəniyyətlər şöbəsində təcrübə keçib. 2007-ci ildə Barak Obamanın seçki kampaniyasında da iştirak edib.

- Xaricdə təhsil sizə nə verdi?

- Xaricdə təhsil mənə aksiomları təkzib etmə və öz aksiomamı yarada bilmə gücünü verdi. Təhsil aldığım dönəmdə olduğum universitetdə tək azərbaycanlı idim və buna baxmayaraq, çəkinmədən ölkəni təmsil etmə istiqamətində əlimdən gələni edirdim. Anladım ki, səsini eşitdirmək üçün iki əlinin olması labüd deyil, tək əldən də səs çıxır. Xaricdə təhsil mənə bir şəxsiyyət kimi formalaşmağı, dünyada digərlərinin cızdığı çərçivədən kənara baxmağı, ayaqlarımın deyil, məntiqimin və xəyallarımın vəhdətinin götürdüyü yerə getməyimin nə qədər önəmli olduğunu öyrətdi və bunu həyata keçirməyimə səbəb oldu.

- Uğurlu karyerada qadın olmağın avantajları və dezavantajları nələrdir?

- Mənə görə, karyerada qadın və ya kişi kimi cinsi fərqlilik yoxdur. İnsanlar fərqli xasiyyətlərə və xüsusiyyətlərə mənsub ola bilərlər və yalnız bu, onları karyeranın hansısa mərhələsində ya yuxarıya qaldıra, ya da endirə bilər. Ümumiyyətlə, qadınların karyera sahibi olmaları və bunun sayəsində ailələrinə, ətrafındakılara insanlara olan müsbət təsirlərinin artması danılmazdır. Ailələrdə böyüyən uşaqların dünyagörüşü və sonrakı taleyi birbaşa karyera sahibi olan, sözlərini cəmiyyətdə deyə bilən və ayaqları üstə durmağı bacaran valideynlərdən mütləq şəkildə asılıdır.

- Sizcə, insan neçə yaşından karyera qurmağa başlamalıdır? Yəni karyera qurmağın yaşı varmı?

- Doğuşdan istedadı olan 15 faizi nəzərə almasaq, karyera üçün uzun illər çalışmaq lazımdır. Çalışarsan və öz üzərində işləyərsənsə, karyera başına gələ biləcək ən gözəl hadisədir. Karyeranın yaşı yoxdur. Ona gedən yolda qoyulan əzmkarlıq ən vacib açardır. Özümdən misal gətirim, ilk ödənişli işimdən əlavə 15 ildən çox könüllü fəaliyyətlə məşğul olmuşam. Bundan çox böyük zövq almışam. Mənə görə, lazımlı olmaq və könüllülük həm də şəxsi inkişafa yatırımdır. Bu, enerji və istək investisiyası mütləq karyerada sizə geri dönəcəkdir.

- "Obama Amerika üçün" kampaniyasında araşdırmaçı kimi iştirak etmisiniz. O günlərdən danışardınız. Sizi təəccübləndirən və ya maraqlı gələn hansısa məqamı xatırlayırsınızmı?

- Bu kampaniya mənim həm şəxsi inkişafım, həm də karyeram üçün çox böyük təcrübə oldu. Xaricilərlə çalışdığım ilk işim olduğunu nəzərə alaraq, deyə bilərəm ki, bu təcrübə mənim üçün professionallıq,



dəqiqlik, işə məsuliyyətlə yanaşmaq adlı məktəbin əsasını qoydu.

- Uğurlu gənc qadın obrazı kimi Azərbaycan qızlarına, qadınlarına nə demək istərdiniz?

- Qorxmayın! Özünüzün professional inkişafınıza yatırım etməkdən, yeni mühitə çıxmaqdan, yeni iş ortaqları ilə tanışlıqlardan çəkinməyin. Uğursuz olmusunuz? Qoy, bu sizə yenidən öz üzərinizdə işləmək və daha böyük uğurlara imza atmaq üçün stimul olsun. Bəzi gənclərin dediyi kimi, sizə də arzularınızı gerçəkləşdirmək üçün evdən icazə vermirlər? Bunu bəhanə etmədən evdəkiləri də özünüzlə tədbirlərə aparın və əmin olun ki, layihələrin, tədbirlərin önəmini görüb sizə dəstək olacaqlar. Ən azından, buna cəhd edin. Cəhd etdiyiniz halda, istəkləriniz sizə mütləq cığır açacaq. Hədəflərinizdən yan keçməyin.

- Gənclərimizin bir çoxu fikirləşir ki, karyera qurmaq üçün mütləq ya pulun, ya da "day-day"ın olmalıdır. Sizcə, iş həyatında irəliləmək üçün nə lazımdır?

- İş həyatında irəliləmək üçün şəxsi motivasiya, dayanmadan çalışmaq, başqalarından tərif gözləmək əvəzinə özünə dəyər vermək, özünə zamanla gördüyün işlər həcmində və zamanında şəbəkə qurmaq lazımdır. Bunlar olduğu halda karyera üçün başqa dəyərlərin də formalaşacaq.

- Karyera və ailə. Azərbaycan qadını üçün ikisini bir arada çətin deyil ki?

- Asan deyil. Amma ailədən və ətrafındakı gözəl insanlardan dəstək olduğu halda, yeni bir həvəslə daha böyük işlər görüb ailənin gələcəyi üçün daha çox çalışmağa həvəslənirsən.

- Sizcə, uğur qazanmaqda şans nə dərəcədə rol oynayır?

- Şans rol oynayır. Amma hər şeyi şansa buraxmaq doğru deyil. Şans həm əzmi sevir, həm də çox çalışmağı. Mən, məsələn, az yatıb çox çalışmağı uğurlarımı şansıma buraxmaqdan üstün tuturam.

- Uğurun sirri nədir?

- Mənim üçün uğurun sirri deyə bir şey yoxdur. İnsanlar, sadəcə, özlərini yaxşı tanımalıdırlar. Elə ki, özünü yaxşı tanıdın, istəklərini çözə bildin, ondan sonra qoyduğun uğur hədəfinə doğru planlarını da qura biləcəksən. Addımbaaddım həmin hədəfə doğru irəliləyəcəksən. Əsas odur ki, özünü tanımaqda inamlı olmalısan. Bunu bacardınsa, sənə zaval yoxdur, həyatda da özünü tapa biləcəksən.

- Gələcək planlarınız nədir?

- Cəmiyyətimiz üçün yararlı ola biləcək, bizim hamımızı inkişafa aparacaq daha böyük layihələrə imza atmaq. Yararlı vətəndaş olmaq və bunun zövqünü yaşamaq.

Aygün Əziz
"Kaspi" qəzeti,
11 yanvar 2016




RÜBAİ MÜDRİKLİYİ

HÜSEYN HƏŞİMLİ
Filologiya üzrə elmlər doktoru,
əməkdar elm xadimi



İstedadlı və məhsuldar şair-publisist Vaqif Məmmədovun imzası oxuculara yaxşı tanışdır. Həm də təkcə Azərbaycan oxucularına yox. Onun qələmindən çıxmış əsərlər zaman-zaman respublikamızdan kənarda da nəşr olunub, ədəbi ictimaiyyətin diqqətini çəkib, yüksək qiymətləndirilib. Otuz beşdən artıq bədii, publisistik və elmi kitabın müəllifi, Avrasiya Yazarlar Birliyinin üzvü olan Vaqif Məmmədovun şeirləri ingilis, rus, türk, fransız, ərəb, fars, özbək və s. dillərə tərcümə olunaraq dünyanın müxtəlif ölkələrində də (Türkiyə, ABŞ, Rusiya, İran, Almaniya, Özbəkistan, İraq, Ukrayna, Bolqarıstan, Belarus, Pakistan, Yunanıstan və s.) nəşr edilib. Şair ölkəmizdə və xaricdə bir sıra nüfuzlu mükafat və təltiflərə də layiq görülüb. Bütün bunlar onun ədəbi fəaliyyətinə, sənət axtarışlarına verilən qiymətdir.

Təxminən qırx illik zəngin və dəyərli sənət yolu keçən Vaqif Məmmədovun yaradıcılığında əsas yeri poeziya tutur. Müdriklik xəzinəsi olan folklorumuzun və çoxəsrlik yazılı ədəbiyyatımızın möhtəşəm ənənələrindən daima yaradıcılıqla bəhrələnən Vaqif müəllim belə bir zəngin ədəbi zəmin üzərində parvəriş tapmış, şeirdən şeirə püxtələşərək çağdaş Azərbaycan ədəbiyyatında öz səsi, öz nəfəsi olan, orijinal duyum və deyim tərzi ilə seçilən qələm sahibi kimi tanınmışdır.



Şairin poetik axtarışları çoxşaxəli, zəngin və dolğundur. Heca vəzninin geniş imkanlarından məharətlə istifadə edən sənətkar müxtəlif janrlarda yazdığı şeirləri ilə ürəyini, zehnini məşğul edən duyğuları, düşüncələri ustalıqla misralara düzməyi bacarır. Başqa sözlə desək, bu şeirlərdə müraciət olunan poetik forma və ölçülər təsadüfi xarakter daşımır, ötəri seçim statusunda deyil. Şair mövzunun, ovqatın mahiyyətinə uyğun janrlardan, poetik formalardan, bədii təsvir və ifadə vasitələrindən yerli-yerində istifadə edir. Yəni şair daima çalışır ki, qələmindən çıxmış bədii nümunələrdə məzmunla formanın üzvi vəhdətinə, bir-birini tamamlamasına nail olsun. Hətta onun bir çox şeirlərini oxuyandan sonra düşünürsən ki, həmin poetik mətnin əsasında dayanan duyğu və düşüncələr başqa bir formada üzə çıxa bilməzdi, məhz müraciət olunan bədii biçim ən düzgün vasitədir.

Bu baxımdan Vaqif Məmmədovun son vaxtlarda qələmə aldığı rübailər onun sözə həssas münasibətindən yoğrulmuş həmin tendensiyanın davamı və inkişafı olmaqla yanaşı, həm şairin öz yaradıcılığında, həm də ümumən çağdaş poeziyamızda diqqətəlayiq bir addımdır. İstedadlı sənətkarın "Yüz rübai" kitabındakı şeirlər (Naxçıvan, 2014) ideya-bədii mükəmməlliyi ilə ilk baxışdan diqqəti çəkir, oxucunun qəlbinə yol tapır.

Bəllidir ki, rübai şeirimiz üçün yeni janr deyil, hələ on birinci əsrdə məşhur şairimiz Qətran Təbrizi bu janrda maraqlı nümunələr yaradıb. Azərbaycan ədəbiyyatında rübainin ən böyük ustadı sayılan Məhsəti xanım Gəncəvidən sonra isə bu janr söz sənətimizdə daha da geniş yayılıb, populyarlaşıb. Yüz illər boyu klassik lirikamızın bir çox nümayəndələri bu poetik formada dəyərli incilər yaratmışlar. Hətta ənənəvi janrlara münasibətin heç də birmənalı olmadığı sovet dövründə də rübai janrı ayrı-ayrı şairlərin səyləri səyəsində ədəbi gündəmdə qalıb. Nakam taleli Mikayıl Müşfiqin 1930-cu illərdə yazıb "Duyğu yarpaqları" başlığı altında cəmlədiyi rübailər janrın yeni mərhələdəki uğuru sayılır. Sonrakı illərdə Məmməd Rahimin, Qabilin və başqalarının rübailəri də özünün ideya-bədii dəyəri ilə seçilib, yaddaşlara yol tapıb. Hazırkı mərhələdə də bir sıra şairlər rübai janrına müraciət etməkdədirlər ki, fikrimizcə, Vaqif Məmmədovun bu janrdakı əsərləri ən uğurlu örnəklər sırasında durmağa layiqdir.

Rübai yazmaq asan məsələ deyil, cəmi dörd misrada bitkin, mənalı bir fikir söyləmək, hər hansı düşüncəni, lövhəni, ovqatı dolğun şəkildə canlandırmaq şairdən ikiqat məharət və məsuliyyət tələb edir. Razılıq doğuran haldır ki, Vaqif Məmmədov bu çətin vəzifənin öhdəsindən ustalıqla gəlmiş, mövzu, ideya və sənətkarlıq baxımından mükəmməl nümunələr ərsəyə gətirmişdir. Onun rübailərində özünəməxsus cəhət bir də budur ki, şair daha çox həyati müşahidələrini, bu təməl üzərində gəldiyi qənaətləri poetik tərzdə mənalandırmağa xüsusi səy göstərir və əksər məqamlarda məqsədinə nail olur. Həm də belə mənalandırma və yozumlar bir çox hallarda xalq müdrikliyinin ifadəsi olan atalar sözü və məsəllər timsalında poetikləşdirilir. Bütün bunlar isə şairin rübailərinin ideya-estetik təsir gücünü daha da artırır, onları təbii, oxunaqlı edir.

Vaqif Məmmədovun rübailəri zəngin həyat təcrübəsinə malik olan, yaşamın hər üzünü görən, yaxşını da, pisi də müşahidə edib nəticə çıxaran, bəşərin və dünyanın taleyindən əndişələnib narahat duyğularını misralara düzümləyən, bəzən ümid, bəzən də təəssüf notlarını önə çəkən, beləcə, həzin, kövrək düşüncələrin ağuşunda qayğılı sənətkar ömrü sürən bir həssas qələm əhlinin könül çırpıntılarıdır.

İnsan qəlbinin əsrarəngiz qatlarına, təzadlarına diqqət çəkən sənətkarın aşağıdakı fikri gerçək həqiqəti dilə gətirir:

Hər çətin işləri çözəndi insan,
Bir ömür səadət gəzəndi insan.
Bir sözə dözməyib qəlbi qırılan,
Ən ağır dərdlərə dözəndi insan.

Şair haqlıdır: ləyaqətini, mənəvi ucalığını hər şeydən üstün tutan insan məqamı gələndə ən ağır dərdlərə də dözə bilir, lakin bununla belə, bir haqsız söz dərhal onun həssas qəlbini qırır, bütün varlığını sarsıdır. Bəli, insanın həyatı, mənəviyyatı belə əsrarəngiz məziyyətlərə malikdir:

Tək insan ömründə, təzada bax ki,
Payız da, bahar da, qış da yaşayır.

Müəllifin rübailərdə diqqət yetirdiyi əsas məsələlərdən biri də budur ki, həyat nə qədər mürəkkəb olsa da, bu, insanın öz yolundan sarpmasına, düzlükdən uzaqlaşıb əyriliyə meyl göstərməsinə rəvac verməməlidir. Amma nə yazıq ki, öz aslından-kökündən, bəşərin ilkin saflığından uzaqlaşanlar, haqq yolunu azanlar hələ də var. Belələrini görəndə şairin bədii boyalarına bir qədər şırımı da qarışır:

Dəryaya baş vuran itməyir daha,
Yolçu öz yoluynan getməyir daha.
Torpaqmı dəyişib, sumu dəyişib?
Ot kökü üstündə bitməyir daha.

Göründüyü kimi, folklordakı "Ot kökü üstə bitər" kəlamı bu yerdə öz mövqeyini fərqli yozuma verib və belə yanaşma şairin başqa rübailərində də poetik qayənin təqdimində uğurlu bir vasitə kimi tez-tez nəzərə çarpır:

İtibdi hər şeydə mizan-tərəzi,
Örkən doğanaqdan keçməyir daha.
Yaxud,
Ömrü ayriliklər içində keçsə,
Qozbeli qəbir də düzəldə bilməz.

Xalq deyimində örkənin nə qədər uzun olsa da axırda doğanaqdan keçəcəyindən, qozbeli qəbirin düzəldəcəyindən söz açılır. Vaqif Məmmədovun poetik təqdimatında isə mövzunun, düşüncənin xarakterindən asılı olaraq fərqli assosiativliyin üzə çıxması şairin xalq dilindən və müdrikliyindən yaradıcılıqla istifadəsinin yeni çalarları kimi maraq doğurur.

Bunlarla yanaşı, Vaqif Məmmədovun rübailərində xalq təfəkküründən süzülüb gələn bir sıra hikmətli deyimlərin dəyişiklik edilmədən adəbi müstəviyə gətirilməsinə, bu yolla poetik məntiqin daha da qüvvətlənməsinə də tez-tez rast gəlirik:

Qonşu qonşudursa, baxmaz barıdan,
Söz açıb söhbəti kəsməz yarıdan.
Qanmazı yerində qandırmalısan,
Donuz yalvarmaqla çıxmaz darıdan.

Ulularımız haqlı deyiblər ki, yalvarmaqla donuz darıdan çıxmaz. Bu məntiqə söykənən şair tövsiyyə edir ki, qanmaz insanı gərək yerindəcə başa salasan.

Rübailərin hər biri məhz didaktik yozumlar, əxlaqi-nəsihətamiz düşüncələr üzərində qurulub. Lakin bunlar quru öyüd deyil, xalq hikmətindən güc alan poetik qənaətlərdir ki, özünün ideya-bədii mükəmməlliyi ilə ürəyə yatır, ruhu oxşayır, zehinləri riqqətə gətirir, insanı olub keçənlər, keçmiş və gələcək, xeyir və şər barədə bir daha fikirləşməyə səsləyir.

O da təqdirəlayiqdir ki, şair söz oyunu ardınca qaçmır, fikirlərini açıq, konkret, tutarlı və təsirli formada oxucuya çatdırmağı bacarır. Belə məqamlarda müəllifin işlətdiyi təzad və qarşılaşdırmalar da bədii arxitektonikaya yeni bir dəyər qazandırır. Məsələn, yüz illərdən bəridir ki, "Keçmə namərd körpüsündən" harayı yaddaşlarda boy verməkdə, oxucunu, dinləyicini sərvaxt, ayıq olmağa səsləməkdədir. Çünki namərd adamın körpüsündən keçəndə hər cür ağlagəlməz xəyanətlə, bəla və tələ ilə üzləşə bilərsən. Ulularımız ondansa "Qoy aparsın sel səni" deməyə üstünlük vermişlər. Vaqif Məmmədov bu qənaəti orijinal formada daha da dərinləşdirərək yazır ki, hətta üzərində körpü olmayan çaydan keçmək namərd körpüsündən keçməkdən daha asandır:

Evdəki düşməni seçmək çətindir,
Dərdi şərbət kimi içmək çətindir.
Körpüsüz çay üstdən keçməyə nə var,
Namərd körpüsündən keçmək çətindir.

Göründüyü kimi, yuxarıdakı rübaidə təsadüfi misra yoxdur. Hər misranın öz semantik yükü, tutumu var. Doğrudan da, düşmən evdə, ocaq başında qərar tutubsa, onu tanımaq, seçmək heç də asan deyil. Necə ki, dərdi şərbət kimi içmək çox çətindir.

Müxtəlif rübailərdən götürülmüş, aforistik qayəsi, bədii siqləti ilə səciyyələnən aşağıdakı misralar da istedadlı şairin əxlaqi-didaktik qənaətlərinin dolğun poetik əks-sədası, plsə nifrət, yaxşıya ehtiram duyğusunun mükəmməl təzahürü kimi üzə çıxmışdır:

Yuva dağıdanın, ev yıxanların
Daşı daş üstündə qalmaz heç zaman.

Dilini həmişə doğruya öyrət,
Yalan ayaq tutar, yeriyə bilməz.

İnsan hamı ilə dil tapa bilər,
Könül bulandıran milçək olmasa.

Şah da qismətini yazdıra bilməz,
Gələn qəzaları azdıra bilməz.

Taledən üstünə qar yağan ömrü
Günəşin istisi qızdıra bilməz.

İçində xoşbəxtlik, səadət varsa,
Bir kiçik daxma da saray kimidir.

Vaqif Məmmədovun bütün yaradıcılığı boyu müxtəlif janrlı əsərlərində təlqin etdiyi ali həqiqətlər, pak duyğular rübailərinin də canını, əsas özəyini təşkil edir. Müəllifin haqlı qənaətinə görə, Vətənin və xalqın sevgisi hər şeydən üstün olduğu kimi, həsrəti, nisgili də ağırdır:

Yaxşılıq ucaldar, öyər insanı,
Pis əməl qarğıyar, söyər insanı.
Bir elin tənəsi, bir də qəriblik
Sındırar insanı, əyər insanı.

Şairin təəssüflandiyi məqamlar da var. Sənətkar vurğulayır ki, bəzən "Mərdi qova-qova namərd edirlər". Elə də olur ki, "Əyrilər burulub dağlara qalxır, Düzlər də çox zaman düz yurdda qalır". Bunların mahiyyəti barədə söz açan müəllif belə nəticəyə gəlir ki, əyrilərin, namərdlərin müəyyən məqamlarda öz çirkin niyyətlərinə çatmalarının səbəbi doğruların passiv olub onlara meydan verməsindədir:

Gur çıxan bulaqlar azala bilməz,
Günəşin işığı sozala bilməz.
Doğrular meydandan çəkilməsələr,
Əyrilər kürsüdə söz ala bilməz.

Zaman-zaman bir çox istedadlar bədxahların güdazına gedib. Belələri barədə düşünərkən şair təəssüflə yazır ki, öz qabiliyyəti, yetkinliyi ilə zirvələrə layiq olanların ayağının altını qazanlar onların yaxın mənzilini uzaq edib, pak niyyətlərini tərsinə yozub. Beləcə, bir çox istedadlar sarsılıb, əzablara düçar olub, sıradan çıxarılıb:

Mənzil yaxın olar, azan olmasa,
Niyyəti tərsinə yozan olmasa.
Çox insan zirvəyə qalxa bilərdi,
Ayağı altını qazan olmasa.

Rübailərdə öz mənfur məqsədləri üçün cilddən-cildə girənlər, güclülərin önündə siçan yuvası axtaranlar, şəxsi mənafeyi naminə şərəfini, heysiyyətini satmağa hazır olanlar kəskin şəkildə tənqid olunurlar. "Dünyadan dördəlli yapışıb sanki qurdla qiyamətə qalmaq" eşqinə düşən belə kəsləri şair birmənalı şəkildə tənqid hədəfinə çevirir:

Qarşıda özündən güclüsün görsə,
Siçan yuvasını satın alar o.

Sürünər, qıvrılar, çatar pula o,
Halalı, haramı qatar pula o.

Görsə ki, bazarda alıcısı var,
Şərəfi, vicdanı satar pula o.

Xalqa, Vətənə heç bir xeyiri dəyməyən belə bədxah və əqidəsiz şəxslərin mənasız həyatı barədə şairin poetik mənalandırması da çox tutarlı və yerindədir, təbiiliyi ilə seçilir. Sənətkar o cür insanları xalq deyiminə əsaslanmaqla dəqiq xarakterizə edir:

Yanmayıb kimsənin dərdi-sərinə,
Həmişə xor baxıb alın tərinə.
O qədər mənasız ömür yaşayıb,
Adı heç düşməyib it dəftərinə.

Humanst şairin qayəsi belədir ki, insan gərək maskalanmasın, birsifətli olsun, dili də, əməli də birbirini tamamlasın. Amma nə yazıq ki, heç də hamı belə deyil. Həyatın dolanbaclarında gördüyümüz insanlar içərisində hər xasiyyətdə olanı var. Şair öz nəcib amalından, kamil həyat kredosundan yanaşaraq nadan və cahillərə öz münasibətini dilə gətirir:

Hamı xeyriyyəçi tanıyır onu,
Atası qocalar evində öldü.
Yaxud,

Əyri heç vaxt düzü yanlaya bilməz,
Günahkar haqlını danlaya bilməz.

Hamam suyu ilə dost tutan insan
Vəfa, etibar nə?- Anlaya bilməz.

Rübaidən rübaiyə keçdikcə təzadlı dünyamızın qəribəlikləri, ziddiyyətləri, fərqli xasiyyətli insanları kitab səhifələri kimi göz önündə vərəqlənir. Hətta bəzən şairin ciddi mətləbləri ifadə edən poetik düşüncələrinə bir xəfif yumor da qarışır və ideya-estetik mündəricə bu yolla da tamamlana bilir. Şair diqqəti ona da yönəldir ki: "Həkimlər keçəli saçlı eyləyir, Keçəl Həmzələrin başı tüklənib", yaxud "Qabaqca keçilər ala-bulaydı, İndi bütün dünya ala-buladır", və ya "Məcnun yaşasaydı, görən, Leyliyə O da telefonla mesaj yazardı?" və s...

Ümumiyyətlə, istedadlı şairimiz Vaqif Məmmədovun söz rübabında yeni, həm də uğurlu və əsrarəngiz bir səda olan "Yüz rübai"nin ideya-estetik məziyyətlərindən, hər bir rübainin didaktik və poetik məziyyətlərindən çox danışmaq olar. Bu yığcam qeydlərdə ilkin təəssürat olmaqla müəyyən məqamlara toxunmaq istədik. Bütövlükdə bu əl boyda kitab çox mətləblərdən soraq verir, onu diqqətlə oxuyan hər bir şəxs buradan özü üçün mənəvi fayda əxz edə bilər, zövq almağı da öz yerində...

"Yüz rübai" kitabını oxuyandan, həm də bir neçə dəfə oxuyandan sonra şairin növbəti sənət uğuruna ürəkdən sevindim. Həm də düşündüm ki, Vaqif Məmmədov gərək rübai janrına çoxdan müraciət edəydi...

"XƏZƏR"İN KOMANDASI QALİB OLDU



Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun VII qrant müsabiqəsi çərçivəsində maliyyələşdirdiyi, Azərbaycan Atıcılıq Federasiyası və Azərbaycan Velosiped İdmanı Federasiyasının tərəfdaş qismində iştirak etdiyi "Sağlam Universiada" layihəsinin yanvarın 13-də ilk turniri keçirilib.

Paintball idman növü üzrə keçirilən turnirdə 8 universitet komandası mübarizə aparmışdır.

1-ci yerə Xəzər Universitetinin komandası (Anar Qurbanov - kapitan, politologiya, Mahir Suleymanlı, Firdovsi Muradzadə - regionşünaslıq, Talıb Talıbzadə - politologiya, Cavad Məlikov - beynəlxalq əlaqələr) çıxmışdır. 2-ci yerə Azərbaycan Memarlıq və İnşaat Universitetinin, 3-cü yerə iki universitetin - Azərbaycan Universiteti və Milli Aviasiya Akademiyasının komandaları layiq görülmüşdür. 1-ci və 2-ci yerləri qazanan universitet komandaları birbaşa velosiped turnirinə vəsiqə qazanmışlar.

Qaliblər "Sağlam Universiada" layihəsinin rəhbəri və Paintball klubunun rəhbəri tərəfindən diplomlarla mükafatlandırılmışlar.

Qeyd edək ki, layihənin əsas məqsədi gənclərin asudə vaxtının səmərəli təşkilinə dəstək, onlar arasında sağlam həyat tərzinin təbliği, bir sıra idman növlərinin geniş şəkildə yayılmasına təkan vermək, onlarda idmana maraq yaratmaqdır.

Tədbir haqqında ölkə mediasında verilmiş xəbərləri bu linklərdə oxumaq olar:

http://gun.az/xeber-telebeler-arasinda-paintball-turniri-kecirilib-t183918.html;

http://www.adalet.az/w87476/Tələbələr_arasında_Paintball_turnir_keçirildi.

http://www.azpress.az/index.php?lang=az&sectionId=news&id=47772



MALAYZİYA:
PETRONAS ƏKİZ QÜLLƏLƏRİ
PETRONAS TWİN TOWERS



Dünyadakı ən hündür qüllələrdən sayılan Petronas qüllələri Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində yerləşir. Petronas qüllələri 1992-1998-ci illərdə argentinalı memar Sezar Pelli tərəfindən inşa edilib. 1998-2004-cü illərdə dünyanın ən hündür tikilisi hesab edilib. Tikilinin inşası zamanı 1,6 milyard dollar dəyərində 36910 ton poladdan istifadə edilib.

Bura Malayziyanın milli neft şirkəti Petronas tərəfindən inşa etdirildiyi üçün Petronas adı verilib. Qüllələrdə şirkətə aid olan ofislərdən əlavə, bir çox ticarət mərkəzi, təbii elmlər muzeyi - Petrosayens, simfonik orkestr və incəsənət qalereyası yerləşir.

Petronas qüllələri memarlıq üslubuna görə, təkcə İslam deyil, eləcə də Asiyanın böyük buddist məbədlərindəki xətləri əks etdirir. Bu səbəbdən Malayziyanın malay və çinli etnik xüsusiyyətlərinin vəhdətini ortaya çıxarır.

Kuala-Lumpurun simvolu sayılan qüllənin 32 min pəncərəsi var. Qüllələri hər gün minlərlə turist ziyarət edir. Bura 452 metrlik yüksəkliyi ilə dünyanın ən hündür tikililəri arasında yer alır. İki qüllə, aralarındakı əlaqənin təmin edilməsi məqsədilə yerdən 170 metr yuxarıda, 41-42-ci mərtəbələrdə Səma Körpüsü adı verilən körpülərlə bir-birinə birləşib. Bu körpülərin uzunluğu isə 58 m-dir.

Əsasən İslam memarlıq üslubunda hazırlanan və polad karkasa malik şüşədən ibarət qüllə zəlzələ və ildırımlara qarşı çox dayanıqlı olan dizayna sahibdir.



Valideynlərin və şagirdlərin nəzərinə!

Dünya məktəbi

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-ci tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

Məktəbəqədər hazırlıq

2016-2017–ci il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az



Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:

I qrup üzrə:

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnika mühəndisliyi
- Mexanika mühəndisliyi

II qrup üzrə:

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

III qrup üzrə:

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

IV qrup üzrə:

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya

Ünvan: Məhsəti küçəsi, 41
(Neftçilər metrosunun yaxınlığında)
Əlaqə telefonları: (012) 323-93-13, (012) 408-81-78, (012) 421-79-27
Faks: (012) 498-93-79
İnternet: http//www.khazar.org

XƏZƏR UNİVERSİTETİ

**Xaricdə ən çox tanınan,
xarice ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.
siteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və
Xəzər Univer diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.**

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

QS (World University Rankings) təşkilatının 2015-ci il sentyabrın 15-də elan etdiyi reytinq cədvəlinə əsasən Xəzər Universiteti dünyanın ən yaxşı 700 üniversiteti arasında yer almışdır.

2015-ci il oktyabrın 21-də QS (World University Rankings) təşkilatı 2015/16-cı tədris ili üçün inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin 2-ci illik reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycandan ilk 70 ali təhsil müəssisəsi arasında yer almış tək universitetdir.

***

Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlükdə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.

Professor Əjdər Ağayev,
Azərbaycan Təhsil Şurasının sədri

Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.